Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 233 (7669) ÇƏRŞƏNBƏ AXŞAMI, 24 oktyabr 2017-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Dövlət yenə də sahibkarlara sahib çıxır

## Özəl sektor daha 4 il lüzumsuz yoxlamalardan azad olunur

**Azərbaycanda sahibkarlığın tarixi qədimdir. Hələ qədim vaxtlarda Azərbaycan sahibkarları bir çox məhsullar istehsal edərək xarici ölkələrə ixrac edirdilər. Həmin məhsulların çox hissəsi xalçaçılıq, misgərlik, zərgərlik, ipəkçilik məmulatları və müxtəlif ərzaq məhsulları idi. Amma zaman dəyişdikcə Azərbaycanın ixrac çeşidi də artırdı. Qədim diyarımızda sahibkarlığın vüsət aldığı dövr isə ötən əsrin əvvəllərinə təsadüf edir. O illər Azərbaycanda neft hasil edilməyə başladı. Neft sənayesinin inkişafı isə digər sahələrin inkişafına təkan verdi. Beləliklə, Azərbaycanda sahibkarlığın müxtəlif formaları meydana gəldi və dünya səviyyəsində tanınan sahibkarlar yetişdi.**

Azərbaycanda sovet hakimiyyəti qurulmaqla sahibkarlıq bir sinif olaraq ləğv edilərək bütün əmlak və istehsal dövlətin nəzarətinə keçdi. 70 il ərzində sovet hökuməti iqtisadiyyatı inzibati amirlik üsulu ilə idarə etdi. Belə sistemdə isə özəl sektorun və sahibkarlığın yeri yox idi. Bu üzdən də Azərbaycanda tarixi ənənələri olan sahibkarlığa son qoyuldu.

Ötən əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycan tamam fərqli iqtisadi inkişaf yolunu - bazar iqtisadiyyatını seçdi. Siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev bununla bağlı radikal islahatların aparılmasına qərar verdi. Tezliklə bu istiqamətdə bir sıra yeni qanun və qərarlar qəbul edildi, ölkədə sahibkarlığın və özəl sektorun inkişafına geniş imkan yaradıldı. Amma bir çox məmurlar və qurumlar yeni idarəetmə qaydalarına uyğunlaşa bilmir və onlar tez-tez sahibkarların işinə yersiz müdaxilələr edirdi. Belə bir vəziyyətə ulu öndər göz yuma bilməzdi. Odur ki, sahibkarların müdafiəsinə qalxaraq 1996-cı il iyunun 17-də "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" fərman imzaladı. Bu sənədin qəbul edilməsində başlıca məqsəd dövlət nəzarəti mexanizmini təkmilləşdirmək, bazar münasibətlərinin inkişafına mənfi təsir göstərən halların qarşısını almaqla sahibkarların hüquqlarını qorumaq idi. Fərmanın icrası dövlət nəzarətinin təkmilləşdirilməsinə və sahibkarlığın inkişafına böyük stimul verdi. Beləliklə, iqtisadi sahədə bir-birini təkrarlayan, paralel və lüzumsuz yoxlamaların sayı azaldı, bazar iqtisadiyyatı prinsiplərinə uyğun olmayan neqativ halların qarşısı xeyli alındı və sahibkarların hüquqlarının qanunla qorunmasına imkan yarandı.

Ulu öndərin ölkənin tərəqqisi strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev də özəl sektorun və sahibkarlığın inkişafına xüsusi diqqət yetirir. Yerli istehsalın və sahibkarlığın stimullaşdırılması üçün bir sıra vergi güzəştlərinin tətbiqi, sahibkarlara güzəştli şərtlərlə kreditlərin verilməsi və s. bu diqqətin nəticəsidir. Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar sahibkarlığın dinamik inkişafı və ölkəyə xarici investisiyaların cəlb edilməsi üçün geniş imkanlar açmışdır.

Dövlət başçısı sahibkarlar üçün daha münbit şərait yaratmaq məqsədilə müntəzəm olaraq qərarlar qəbul edir. Bunlardan biri də müxtəlif sahələr üzrə sahibkarların fəaliyyət göstərmələri üçün lisenziyaların verilməsində edilən dəyişikliklərdir. Çünki iş adamları bəzi sahələr üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) alarkən bürokratik əngəllərlə rastlaşırdılar. Odur ki, Prezident 19 oktyabr 2015-ci il tarixdə "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi haqqında" fərman imzaladı. Fərman ölkə ərazisində sahibkarlığın inkişafının stimullaşdırılması, əlverişli biznes mühitinin təmin edilməsi, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığın təmin olunmasına xidmət edirdi.

Prezident həmçinin qanunvericilik təşəbbüsü hüququndan istifadə edərək "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunda dəyişikliklərin edilməsi barədə təklif irəli sürdü. Qanun layihəsi Milli Məclisdə müzakirə olunduqdan sonra qəbul edildi. Beləliklə, cari il noyabrın 1-dək sahibkarlıq subyektlərində lüzumsuz yoxlamaların aparılması dayandırıldı. Lakin dövlət başçısının təşəbbüsü ilə əsassız yoxlamaların aparılmasının 2021-ci ilədək uzadılması gözlənilir. Bu isə o deməkdir ki, sahibkarlıq subyektləri növbəti 4 il ərzində də əsassız yoxlamalardan azad ediləcək. Belə bir qərarın verilməsi sahibkarlığın inkişafına yeni stimul verəcək, onun iqtisadi proseslərdəki dinamikasını artıracaq. Çünki bu illər ərzində də yalnız vergi, eləcə də insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına ziyan verə biləcək hallarda müvafiq icra hakimiyyəti orqanları tərəfindən yoxlamalar həyata keçirilə bilər, özü də ciddi nəzarət altında, müəyyən məhdudiyyətlər çərçivəsində.

Onu da qeyd edək ki, ölkədə özəl sektorun inkişafı üçün görülən işlər təkcə bundan ibarət deyil. Götürək sahibkarlıq subyektlərinə verilən güzəştli kreditləri. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu barədə demişdir: "Bildiyiniz kimi, sahibkarlığın inkişafı üçün bir çox işlər görülür. Onların arasında güzəştli kreditlərin verilməsi də var. Artıq uzun illərdir ki, bu proses davam edir. Hazırda sahibkarlara verilən güzəştli kreditlərin, demək olar ki, tam həcmi əvvəllər verilmiş və qaytarılmış kreditlər hesabına təşkil edilir. Bu il kifayət qədər böyük proqram nəzərdə tutulmuşdur. Mənə məruzə edilir. Bu proqramın böyük hissəsi icra edilmişdir. Amma hələ də Sahibkarlığa Kömək Milli Fondunun sərəncamında kifayət qədər vəsait - bölüşdürülməmiş, yaxud da ki, bölüşdürülmüş, ancaq verilməmiş kreditlər var. Çalışmaq lazımdır ki, ilin sonuna qədər nəzərdə tutulmuş kreditləşmə tam həcmdə təmin edilsin".

Məlumat üçün bildirək ki, bu günədək sahibkarlara təxminən 2 milyard manat güzəştli kredit verilib. Həmin kreditlərdən istifadə edən sahibkarlar öz işlərini genişləndirməklə həm də paytaxt və regionlarda minlərlə iş yeri yaradıb. Onların fəaliyyəti sayəsində qeyri-neft sektorunda məhsul istehsalı ildən-ilə artır. Bununla yanaşı, sahibkarlığın daha da inkişaf etməsi üçün investisiya təşviqi mexanizmi həyata keçirilir. İndiyədək sahibkarlara 200-dən çox investisiya təşviqi sənədi verilib. Bu layihə çərçivəsində özəl sektor tərəfindən 1,7 milyard manat həcmində investisiya yatırımının təmin olunması gözlənilir. Bu da yeni müəssisələrin, istehsal və xidmət sahələrinin yaranması, eyni zamanda əlavə iş yerinin açılması deməkdir. Vurğulamaq lazımdır ki, həmin investisiyalar qeyri-neft sektorunda istifadə ediləcək. Bu isə ölkənin daxili tələbatı ödənildikdən sonra xaricə yeni məhsulların çıxarılmasına imkan yaradacaq. Bütün bunlar isə həm də ölkəmizin neftdən asılılığını xeyli azaldacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Şəki şəhərinin Şəki-Kiş avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On yeddi min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Şəki-Kiş avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,8 milyon (dörd milyon səkkiz yüz min) manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2017-ci il*

# Azərbaycan Şərq ilə Qərb arasında etibarlı dostluq və əməkdaşlıq körpüsü olmağa qadirdir

## *Ölkəmizin D-8-in üzvü olması zamanın tələbidir*

Müsəlman dövlətlərinin İqtisadi Əməkdaşlıq Təşkilatı D-8-in İstanbulda keçirilən 9-cu sammitində Bakının Şərqin Cenevrəsinə çevrilmək ehtimalı bir daha təsdiqini tapdı. IX Zirvə görüşü ilə D-8 təşkilatı fəaliyyətinin 20 illik dövrünü əhatə edən birinci mərhələsinə yekun vurdu, yeni hədəfləri və fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirdi. Diqqətçəkən məqamlardan biri Azərbaycanın bu qurumda təmsilçiliyinin yaxın gələcəkdə reallığa çevrilməsi oldu.

Əvvəlcə onu qeyd edək ki, D-8 Türkiyənin keçmiş Baş naziri Nəcməddin Ərbakanın təşəbbüsü əsasında 22 oktyabr 1996-cı ildə İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında yaradılmışdır. D-8 15 iyun 1997-ci il tarixində ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə İstanbulda rəsmi olaraq toplanmış, bu il iyunun 15-də isə yenə də Türkiyənin həmin şəhərindəki, Çırağan Sarayında 20 illik yubileyini qeyd etmişdir.

Münaqişələr əvəzinə sülh, mübahisələr əvəzinə dialoq, istismar əvəzinə kooperasiyalar, ikili standartlar əvəzinə hüquq, zülm əvəzinə demokratiya, diskriminasiya əvəzinə hüquqi bərabərlik təşkilatın söykəndiyi əsas prinsipləridir. Birinci sammitə 1997-ci ildə Türkiyə, ikinciyə 1999-cu ildə Banqladeş, üçüncüyə 2001-ci ildə Misir, dördüncüyə 2004-cü ildə İran, beşinciyə 2006-cı ildə İndoneziya, altıncıya 2008-ci ildə Malayziya, yeddinciyə 2010-cu ildə Nigeriya, səkkizinciyə isə 2012-ci ildə Pakistan evsahibliyi etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev IX Zirvə görüşündəki çıxışında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana tədbirə dəvət və göstərilən qonaqpərvərlik üçün təşəkkürünü bildirərək xatırladı ki, 2015-ci ilin noyabr ayında Antalya şəhərində "Böyük iyirmilər"in Zirvə görüşünə də Azərbaycan dəvət edilmişdi: "Bu, bir daha Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun bariz nümunəsidir".

Siyasi şərhçilər belə hesab edirlər ki, Azərbaycan Prezidentinin oktyabrın 20-də İstanbulda inkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) "Əməkdaşlıq yolu ilə imkanları artırmaq" devizi altında keçirilən görüşündə xüsusi qonaq qismində iştirak etməsi dövlətimizin dünyadakı nüfuz və rolunun getdikcə artmasının bariz nümunəsi kimi qiymətləndirilməlidir.

Ölkəmizin bu tədbirdə yer alması belə qənaətə gəlməyə əsas verir ki, Azərbaycan Ermənistan tərəfindən uzun sürən ağır münaqişəyə cəlb edilsə belə, dünyada gedən proseslərdən bir sıra müsəlman ölkələri kimi təcrid olunmamış, mürəkkəb münaqişənin ağır fəsadlarını çevikliklə aradan qaldırmış, işğalçını neytrallaşdırmış, beynəlxalq gücünü və nüfuzunu nəzərəçarpacaq dərəcədə artıra bilmişdir.

Azərbaycan Prezidenti sammitdəki çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq tədbir iştirakçılarına ətraflı məlumat verdi. Ermənistanın 25 ildən artıq Azərbaycanın tarixi torpaqlarını - Dağlıq Qarabağı və ətrafındakı 7 rayonu işğal etdiyini diqqətə çatdırdı, həmin ərazilərdə etnik təmizləmə siyasətinin aparıldığını, 1 milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, 1992-ci ildə isə Ermənistanın Xocalı soyqırımını törətdiyini bildirdi. BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməyə, eyni zamanda Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT və digər beynəlxalq təşkilatların qəbul etdiyi analoji qətnamələrə işğalçı Ermənistanın məhəl qoymadığını diqqətə çatdıran dövlət başçısı bildirdi ki, Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək ki, onun əzəli torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Onu da qeyd edək ki, Azərbaycan Prezidentinin işğalçı Ermənistana qarşı bu cür sərt və kəskin çıxışı, işğalçı dövlətin mahiyyət etibarilə bütün müsəlman dövlətləri üçün təhlükə mənbəyi olmasını bildirməsi xüsusi əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyev çıxışında Azərbaycanın İslam həmrəyliyinə ciddi önəm verdiyini, 2017-ci ilin Azərbaycanda "İslam həmrəyliyi ili" elan olunduğunu da nəzərə çarpdırmışdır. Dövlət başçısı vurğulamışdır ki, müstəqilliyinin bərpasının 26-cı ildönümünü qeyd edən Azərbaycan 2004-cü ildən başlayaraq iqtisadiyyatını 3 dəfədən çox artırmış, 2 milyona yaxın iş yeri açmış, yoxsulluğu 5 faizədək azalda bilmişdir.

***Ardı 2-ci səh.***

# İlham Əliyevin "Yeni Daşkəsən" layihəsi uğurla icra olunur



## Regionun güclü sənaye mərkəzlərindən birinə çevrilən Daşkəsən istehsal potensialı ilə "Made in Azerbaijan" brendinin təşviqinə böyük töhfə verir

**Ötən 14 ildə Azərbaycanın qazandığı nailiyyətlər, sosial-iqtisadi yüksəlişi, beynəlxalq imicinin artması, regionun lider dövlətinə çevrilməsi, dünyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından biri olması ölkəmizin sanki onilliklərə bərabər inkişaf yolu keçdiyini düşünməyə əsas verir.**

Bu uğurların kökündə dayanan əsas səbəb ulu öndər Heydər Əliyevin siyasi kursunun, müəyyən etdiyi inkişaf strategiyasının bu müddətdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və dövrün tələblərinə uyğun məzmun və keyfiyyətcə yeniləndirilməsidir. Prezident İlham Əliyev çox qısa müddətdə bütün sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazılan uğurların müəllifi oldu.

Dövlət başçısının düşünülmüş, məqsədyönlü fəaliyyəti ölkəmizdə milli birliyin, sabitliyin möhkəmlənməsinə, Azərbaycanın regional və beynəlxalq miqyasda nüfuzunun daha da artmasına gətirib çıxarıb. Xarizma, yüksək nüfuz, təşkilatçılıq bacarığı, müdriklik, yüksək intellektuallıq, milli-mənəvi dəyərlərin daim uca tutulması, novatorluq, hadisələrə pozitiv təsir, qətiyyətlilik, prinsipiallıq və bu qəbildən olan digər keyfiyyətlər Prezident İlham Əliyevin liderlik keyfiyyətlərini xarakterizə edən başlıca xüsusiyyətlərdəndir.

***Ardı 3-cü səh.***

# Azərbaycan BMT-də maraqlarını layiqincə təmin edir

**Oktyabr ayının 24-ü dünyada BMT Günü kimi qeyd olunur. 1945-ci ilin həmin günü BMT-nin Nizamnaməsi təsdiq edildikdən sonra Birləşmiş Millətlər Təşkilatı rəsmi olaraq yaradılmışdır. 1948-ci ildən etibarən 24 oktyabr tarixi BMT Günü kimi qeyd edilir.**

Ənənəyə uyğun olaraq, bu gün bütün dünyada təşkilatın məqsəd və müvəffəqiyyətlərinə həsr olunmuş müşavirələr, müzakirələr və sərgilər keçirilir. 1971-ci ildə isə BMT Baş Məclisinin tövsiyəsi ilə bu tarix BMT-nin üzvü olan bütün ölkələrdə bayram kimi qeyd edilir.



## Beynəlxalq səviyyədə mühüm tribuna

BMT ilə əməkdaşlığa başlanılmasından sonra respublikamız bu mötəbər qurumun platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb etmiş, BMT-nin potensial imkanlarından istifadə etməklə problemin ədalətli həllinə çalışmışdır. 1993-cü il ərzində BMT-nin Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 30 aprel 1993-cü ildə 822, 29 iyul 1993-cü ildə 853, 14 oktyabr 1993-cü ildə 874 və 12 noyabr 1993-cü ildə 884 saylı qətnamələr qəbul etmişdir. Bu qətnamələr Azərbaycanın ərazi toxunulmazlığını, Dağlıq Qarabağ və digər ərazilərin Ermənistan tərəfindən işğalı faktını təsdiq edərək işğalçı qüvvələrin Azərbaycan Respublikası ərazisindən dərhal çıxarılması tələblərini irəli sürmüşdür. Bundan başqa, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan əhalisinin doğma torpaqlarından qaçqın və məcburi köçkün düşməsindən narahatlıq hissi keçirərək BMT-nin Baş Assambleyası 1993-cü ildə keçirdiyi 85-ci plenar iclasında "Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında" qətnamə qəbul etmişdir.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə dönüşündən sonra ölkəmizin BMT tribunasından daha səmərəli istifadə etməsi diqqət çəkir. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan BMT platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə daha çox cəlb etməyə başlamışdır. 1994-cü ilin sentyabrında BMT Baş Məclisinin iclasında nitq söyləyən Heydər Əliyev bu tribunadan Azərbaycanın haqq səsini dünyaya çatdırmış, Ermənistanın ölkəmizə qarşı təcavüzünü və onun ağır nəticələrini beynəlxalq aləmə bəyan etmişdir. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən BMT Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak edən ulu öndər Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək mövcud qlobal problemlərə dair Azərbaycan Respublikasının prinsipial mövqeyini açıqlamış, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırmışdır. Ümummilli lider Heydər Əliyev 2000-ci ilin sentyabr ayında BMT-nin Minillik Zirvə Toplantısında da iştirak etmiş, çıxışında qlobalizasiya mövzusuna toxunmuş, Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə Azərbaycanın verdiyi töhfələri xüsusilə qeyd etmişdir.

***Ardı 4-cü səh.***




# Azərbaycan Şərq ilə Qərb arasında etibarlı dostluq və əməkdaşlıq körpüsü olmağa qadirdir

## Ölkəmizin D-8-in üzvü olması zamanın tələbidir

Əvvəli 1-ci səh.

Valyuta ehtiyatlarımız ölkənin ümumi daxili məhsuluna bərabərdir. Xarici dövlət borcu ümumi daxili məhsulun 20 faizindən azdır. Azərbaycanın bu uğurları beynəlxalq təşkilatlar tərəfindən də qeyd olunur. Davos İqtisadi Forumunun iqtisadiyyatın rəqabətqabiliyyətliliyi üzrə builki hesabatında Azərbaycan 35-ci yeri tutub. Bütün bunlar onu deməyə əsas verir ki, ölkəmiz müsəlman dövlətləri üçün bənzərsiz bir nümunəyə çevrilir və D-8-in üzvləri ilə bir sırada durmağa mənəvi haqqı çatır.

Türkiyə Prezidenti Ərdoğan da toplantıda çıxışında bildirdi ki, D-8-ə yeni üzvləri qəbul etməyə ehtiyac var: "Bizlər, D-8 üzvləri 3 qitəyə hakim vəziyyətdəyik. Zəngin təbii ehtiyatlarımız, gənc, dinamik bir əhalimiz var. Adambaşına düşən milli gəlir də orta hesabla yüksəkdir. Təbii ki, bu da yetərli deyil. D-8-in daxili ticarət dövriyyəsinin həcminin 500 milyard dolları aşacağına inanıram. Müdafiə sənayesi başda olmaqla bir çox sahələrdə ortaq layihələrimiz ola bilər. Bir çox sahələrdə əməkdaşlıq üçün potensialımız var. Təşkilatımıza yeni üzvlər qazandırmağımıza ehtiyac var. Milli və yerli valyuta ilə ticarət etsək, ölkələrimiz qazanar. Mübadilə mərkəzi yaratmaq üçün mərkəzi banklarımızı bir araya gətirməliyik".

Türkiyə Prezidentinin D-8-in genişləndirilməsi ilə bağlı fikirləri artıq dünya KİV-nin manşetlərinə çıxarılır, siyasi şərhçilər və iqtisadi ekspertlər isə Azərbaycanın D-8-ə üzvlüyünün Şərqin özü üçün zərurət olduğunu vurğulayırlar. Onların gəldiyi ümumi qənaət belədir ki, ərəb inqilabları ilə əlaqədar regionda yaranmış mürəkkəb geosiyasi şəraitdən sonra Azərbaycanın D-8-ə üzv olması bir tərəfdən zəruridir, digər tərəfdən də belə bir addım sabitliyə və sülhə xidmət edə bilər.

Honkonq Çinlə Qərb arasında necə körpü rolunu oynayırsa, Azərbaycanda müsəlman ölkələri ilə Qərb, Cənubla Şimal arasında möhtəşəm körpü rolunu oynamağa qadirdir. Azərbaycanın Rusiya ilə Türkiyə arasındakı uğurlu barışdırıcı missiyası, əksər nəqliyyat dəhlizlərinin ölkəmizin ərazisindən keçməsi həqiqətən də Azərbaycanı güclü və nüfuzlu siyasi oyunçuya çevirir. Ən azından Azərbaycanın D-8-ə üzvlük məsələsi nə qədər yaxın gələcəkdə həll olunarsa, bir o qədər də çox müsəlman Şərqi ilə Qərb arasında siyasi və iqtisadi əlaqələr fəallaşacaq, sülhə yeni yollar açılacaq.

Sammitdəki çıxışında Prezident İlham Əliyev başqa vacib məqamlara da toxunmuş, ölkəmizdə müsəlman dövlətləri üçün əhəmiyyət kəsb edən islahatların geniş spektri haqqında ətraflı məlumat vermişdir. Azərbaycanın beynəlxalq miqyaslı layihələrin təşəbbüskarı və fəal iştirakçısı olduğunu, tərəfdaşlarla birlikdə "Cənub qaz dəhlizi" layihəsini icra etdiyini bildirmişdir. Tezliklə rəsmi açılışı olacaq Bakı-Tbilisi-Qars dəmir yolu isə Avropa ilə Asiya arasında ən qısa yol olacaq. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasına böyük sərmayələr də qoyur. Bu nəqliyyat dəhlizləri Avrasiyanın iqtisadi inkişafı üçün yeni imkanlar açır.

Azərbaycanın bu təşkilata üzv olması D-8-in daha da güclənməsinə xidmət edə bilər. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə İslam və Qərb dünyası arasında yaxınlaşma kursu yeridilir. Sinqapurdan necə bütün dünyanın "maliyyə yolları" keçirsə, Azərbaycan tolerantlığı da islam və xristian dünyaları arasında bənzərsiz və unikal körpüdür.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Pan-Afrika Parlamentinin prezidenti Azərbaycana gəlib

Pan-Afrika Parlamentinin prezidenti Rocer Nkodo Danqın rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 22-də Azərbaycana səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda Pan-Afrika Parlamentinin prezidentini Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov qarşılayıb.



# Çexiya ölkəmizin etibarlı tərəfdaşıdır



Dünən Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov ölkəmizdə səfərdə olan Çex Respublikası Senatının sədr müavini Yirji Şestakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü. Görüşdə iki ölkə arasındakı əlaqələrdən və inkişaf perspektivlərindən danışıldı.

Qonaqları Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu ifadə edən Valeh Ələsgərov bildirdi ki, Çexiya və Azərbaycan arasında istər parlament, istərsə də hökumət səviyyəsində əlaqələr yüksəkdir. Onun sözlərinə görə, Azərbaycan Çexiya ilə dostluq, suveren bərabərlik, qarşılıqlı etimad və müxtəlif sahələrdə hərtərəfli əlaqələr yaradıb. Hər iki ölkənin dövlət başçılarının imzaladığı Azərbaycan Respublikası ilə Çex Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin təsdiq edilməsi isə bu əlaqələri daha da möhkəmləndirib.

Qeyd edildi ki, səfər çərçivəsində baş tutacaq görüşlərdə aparılacaq danışıqlar qarşılıqlı əməkdaşlığın daha da inkişafına təkan verəcək. Görüşdə parlamentlərarası və digər sahələrdəki əlaqələrdən bəhs edildi, bu işdə dostluq qruplarının fəaliyyəti yüksək qiymətləndirildi.

Azərbaycana ilk dəfə səfər etdiyini bildirən Çexiya Senatının sədr müavini Yirji Şestak ölkəmizdə olmaqdan şərəf duyduğunu vurğuladı. Qonaq təkcə siyasi sahədə deyil, digər istiqamətlərdə də ölkələrimiz arasında yaxşı əlaqələrin mövcudluğunu xatırlatdı. O, həmçinin iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi perspektivlərinin olduğunu qeyd etdi. Onun sözlərinə görə, Çexiya və Azərbaycan şirkətləri xüsusən nəqliyyat sahəsində qarşılıqlı əməkdaşlıq edir. Bu isə iki ölkə əlaqələrinə müsbət təsir göstərir. Bununla belə, sözügedən sahədə əməkdaşlığın daha da dərinləşdirilməsinə ehtiyac var.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

***Elgün MƏNSİMOV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

# Buxara şəhəri ilə tanışlıq azərbaycanlı qonaqlarda xoş təəssüratlar yaradıb

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti Buxara şəhərində olub.

AZƏRTAC xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik Akif Əlizadənin, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun, Aqrar siyasət komitəsinin sədri, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimovun, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, deputat Hikmət Babaoğlunun, deputat Cavanşir Paşazadənin və digərlərinin daxil olduğu nümayəndə heyəti şəhərlə yaxından tanış olub və silsilə görüşlər keçirib.

Qonaqlar Buxara ilə tanışlığa Bahauddin Naqşibəndi məqbərəsini ziyarətlə başlayıblar. Onlara Bahauddin Naqşibəndi və məqbərənin tarixi haqqında məlumat verilib. Şeyxülislam kompleksin nəzdindəki Ali Mədrəsəsinin tələbələri ilə görüşüb, onlara xeyir-dua verib.

Mədrəsənin direktoru Xayderxan Yuldaşxujaev mədrəsə haqqında məlumat verib. Sonra qonaqlar kompleksin məscidində namaz qılıblar.

Qonaqlar Buxaranın mərkəzindəki Mir Ərəb Mədrəsəsində də tələbə və müəllimlərlə görüşüblər.



Mədrəsənin direktoru Elov Jabir bildirib ki, Şeyxülislam Allahşükür Paşazadə bu mədrəsədə təhsil alıb. O qeyd edib ki, Çeçenistanın birinci Prezidenti, mərhum Əhməd Kadırov, Rusiya Müftilər Şurasının sədri Ravil Qaynutdin və digərləri də bu mədrəsənin yetirmələridir.

Şeyxülislam deyib: "Hər dəfə buraya gələndə həm sevinir, həm də kədərlənirəm. Bunu izah etməyə ehtiyac yoxdur. Buranın hər daşı, hər kərpici mənə əzizdir".

Şeyx tələbələrə müraciətlə deyib: "Siz gələcəyin alimləri və ilahiyyatçılarısınız, Allahın kəlamlarını insanlara çatdıracaqsınız. Yaxşı təhsil almaq, dini dəyərlərə dərindən yiyələnmək sizin borcunuzdur".

Qonaqlar IX-X əsrə aid İsmayıl Samani məqbərəsini, Samanilər bağını və digər tarixi yerləri gəzərək Buxarada keçirilən "Şəhər Günü" bayramına qatılıblar.

Sonra Şeyxülislam Allahşükür Paşazadə Mir Ərəb Mədrəsəsində təhsil aldığı illərdə ona dərs deyən müəllimi, şair və alim, azərbaycanlı İbrahim Qasımovun məzarını da ziyarət edib, ruhuna dua oxuyub.

Bununla da Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin Özbəkistana səfəri başa çatıb.

Xatırladaq ki, nümayəndə heyəti "İslam həmrəyliyi Özbəkistan-Azərbaycan dostluğu timsalında" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün Özbəkistanda səfərdə idi.

# Azərbaycanın xarici işlər naziri İtaliyaya səfər edib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 24-25-i tarixlərində ATƏT-in Aralıq Dənizi Tərəfdaşlığı naminə Əməkdaşlıq proqramı çərçivəsində təşkil olunan "Aralıq Dənizində təhlükəsizliyin möhkəmləndirilməsi, miqrant və qaçqınların böyük axını əsrində əməkdaşlıq" adlı konfransda iştirak etmək üçün İtaliyaya işgüzar səfər edib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir çərçivəsində nazir Elmar Məmmədyarovun çıxışı və bir sıra rəsmilərlə ikitərəfli görüşləri nəzərdə tutulub.

# Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Ermənistanın təxribatları barədə məlumatlandırılıb

Oktyabrın 23-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Avropa İttifaqının (Aİ) ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri səfir Kestutis Yankauskas ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfiri ölkəmizdə fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafı istiqamətində uğurlar arzulayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hazırkı vəziyyətə dair məsələlərin müzakirə edildiyi görüşdə Z.Həsənov Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərinin 20 ildən artıq müddətdə Ermənistanın işğalı altında olduğunu, bunun nəticəsində bir milyondan çox insanın didərgin düşdüyünü və qarşı tərəfin cəbhədə vəziyyəti gərginləşdirmək cəhdlərini qonağın diqqətinə çatdırıb.

Müdafiə naziri bildirib ki, Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində dinc sakinlər və hərbi qulluqçuların həyatlarına təhlükə yarandığından münaqişənin həlli yolu onun beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq işğalçı qoşunların Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasından ibarətdir. Səfir K.Yankauskas qeyd edib ki, Avropa İttifaqı regionda sabitliyin təmin olunması üçün münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin və bu istiqamətdə danışıqların davam etdirilməsinin tərəfdarıdır.

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Pan-Afrika Parlamentinin prezidenti 3 saylı "ASAN xidmət" mərkəzində olub

Pan-Afrika Parlamentinin prezidenti Rocer Nkodo Danqın rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan 3 saylı "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov Rocer Nkodo Danqa "ASAN xidmət" mərkəzlərinin yaradılması, məqsədləri, həyata keçirdiyi xidmət növləri və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Qeyd olunub ki, şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi baxımından "ASAN xidmət"in yaradılması ilə səmərəli dövlət idarəçiliyinin təmin edilməsi sahəsində ciddi nailiyyətlər qazanılıb. Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, onların rahatlığının və şəffaflığın təmin olunması, korrupsiya hallarının istisna edilməsi, müasir texnologiyaların tətbiqi, dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasıdır.

"ASAN xidmət" mərkəzinin əsas prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıqdır. Vətəndaşların burada bütün növ elektron xidmətlərdən yararlanmaları üçün hər cür şərait var. "ASAN xidmət" mərkəzlərində insanlara operativ və rahat formada, müasir texnologiyalar, həmçinin innovasiyalar tətbiq edilməklə xidmət göstərilir. Burada vətəndaşların gözləmələri və vaxtlarını səmərəli keçirmələri üçün funksional yardımçı xidmətlər təqdim olunur. Mərkəzlərdə vətəndaş məmnunluğunun təmini istiqamətində əldə edilən arzuolunan nəticələr də qonaqların diqqətinə çatdırılıb. Həmçinin dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək göstərmək üçün "ABAD" publik hüquqi şəxs yaradılıb.

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə bir sıra ölkələr arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb. Həmçinin "ASAN xidmət" BMT-nin 2015-ci il Dövlət Xidmətləri Mükafatına (United Nations Public Service Award 2015) layiq görülüb. "ASAN xidmət", eyni zamanda, Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. ASAN könüllülərinin "ASAN məktub" və "ASAN kadr" layihələri qabaqcıl təcrübələr kimi, BMT-nin "Cənub-cənub əməkdaşlığı çərçivəsində qabaqcıl mexanizmlər və həllər" adlı portalına daxil edilib.

Pan-Afrika Parlamentinin prezidentinə 3 saylı Bakı "ASAN xidmət" mərkəzində tətbiq olunan innovativ avadanlıq da nümayiş etdirilib.

"ASAN xidmət" mərkəzində yaradılmış şəraiti və nümunəvi iş prinsipini yüksək qiymətləndirən Rocer Nkodo Danq bu qurumun fəaliyyətini təqdirəlayiq hesab edib, kollektivə uğurlar arzulayıb.

# Pan-Afrika Parlamentinin prezidenti Heydər Əliyev Mərkəzi ilə tanış olub

Azərbaycanda səfərdə olan Pan-Afrika Parlamentinin prezidenti Rocer Nkodo Danqın rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 23-də Heydər Əliyev Mərkəzində olub.



AZƏRTAC xəbər verir ki, Pan-Afrika Parlamentinin prezidentinə müasir Bakının rəmzinə çevrilmiş mərkəzin fəaliyyəti haqqında məlumat verildi. Bildirildi ki, mərkəz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin tədqiqi və təbliği, Azərbaycanın tarixi və mədəniyyətinin, milli-mənəvi sərvətlərinin beynəlxalq aləmdə tanıdılması, eləcə də dünya mədəniyyəti nümunələrinin ölkəmizdə tanıdılması istiqamətində fəaliyyət göstərir.

Qeyd edildi ki, mərkəzdəki Heydər Əliyev Muzeyində toplanan məlumatlar ziyarətçilərə interaktiv formada çatdırılır. Ümummilli liderin həyat yolu haqqında maraqlı faktlar foto və videomateriallar vasitəsilə təqdim olunur. Hər bir mövzuya aid materiallar səsli formada həm Azərbaycan, həm də ingilis dilində verilir. Mərkəzdə müxtəlif mövzuları əhatə edən sərgilər açılıb. Qonaqlar mərkəzdə "Azərbaycan inciləri" sərgisi ilə də tanış oldular. Məlumat verildi ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu ekspozisiyada ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsinə dair nadir eksponatlar nümayiş olunur. Qədim sənət növlərinin, xüsusilə də Azərbaycan xalçaçılıq məktəblərinin ən nadir nümunələrinin əks olunduğu sərgidə misgərlik məmulatının təqdimatı da xüsusi maraq doğurur. Qədim musiqi alətlərimiz orijinal qaydada - səsli formada təqdim edilir. Milli geyimlərimizin, qədim sikkələrin təqdim olunduğu sərgidə tolerantlıq ünvanı olan Azərbaycanda müxtəlif dinlərə aid müqəddəs kitablar da ziyarətçilərin diqqətinə çatdırılır.

Nümayəndə heyəti mərkəzdə "Klassik avtomobil sərgisi" ilə tanış oldu. Diqqətə çatdırıldı ki, sərgidə avtomobilin yarandığı ilk dövrlərdən - XIX əsrin sonlarından başlayaraq Almaniya, ABŞ, İtaliya, Fransa, Böyük Britaniya və keçmiş SSRİ-də istehsal olunmuş avtomobillər nümayiş etdirilir.

Pan-Afrika Parlamentinin prezidenti mərkəzin xatirə kitabına ürək sözlərini yazdı.

# ADA Universitetində tələbələrlə görüş

Oktyabrın 23-də Pan-Afrika Parlamentinin prezidenti Rocer Nkodo Danqın rəhbərlik etdiyi nümayəndə heyəti ADA Universiteti ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə nümayəndə heyəti universitetin tədris kompleksini gəzib.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə bu ali təhsil ocağının tarixi barədə məlumat verib. O deyib ki, universitetin məqsədi diplomatiya, ictimai münasibətlər, biznes, informasiya texnologiyaları və sistem mühəndisliyi üzrə qlobal liderlər hazırlamaqdır. Prorektor, həmçinin universitetin fakültələri, ixtisasları və proqramları, o cümlədən xarici tələbələr üçün təklif edilən təqaüd proqramı haqqında qonaqlara ətraflı məlumat verib. ADA-nın dünyanın bir çox nüfuzlu universitetləri ilə əməkdaşlıq etdiyini vurğulayan prorektor qeyd edib ki, bu ali təhsil ocağının nəzdində İctimai və Beynəlxalq Münasibətlər, Biznes, İnformasiya Texnologiyaları və Mühəndislik, Təhsilin İdarə Edilməsi institutları fəaliyyət göstərir. Hazırda universitetdə 5 minə yaxın tələbə təhsil alır.

Tələbələrlə görüşən qonaqlar ADA Universitetində tədris prosesini yüksək qiymətləndirib, onlara uğurlar arzulayıblar. Pan-Afrika Parlamentinin prezidenti Rocer Nkodo Danq yetişməkdə olan gənc nəslin Azərbaycan ilə Afrika dövlətləri arasında əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini bildirib. Prorektor, həmçinin nümayəndə heyətini universitetdə təhsil alan Qambiya və Əlcəzairdən olan tələbələrlə tanış edib. Universitetdə Afrika qitəsinin altı ölkəsindən - Nigeriya, Zambiya, Qambiya, Sudan, Somali və Efiopiyadan on tələbə oxuyur. Ümumilikdə isə ADA Universitetində dünyanın 46 ölkəsindən 100-dən çox xarici tələbə təhsil alır.

ADA Universitetinin dünyanın bir çox ali təhsil ocaqları ilə yaxından əməkdaşlıq etdiyini vurğulayan F.İsmayılzadə gələcəkdə bu cür əlaqələrin daha da genişləndiriləcəyini bildirib.

Pan-Afrika Parlamentinin nümayəndə heyəti ADA Universitetinin tədris kompleksləri və kitabxanası ilə də tanış olub.

2003 2017

# Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



# İlham Əliyevin "Yeni Daşkəsən" layihəsi uğurla icra olunur

## Regionun güclü sənaye mərkəzlərindən birinə çevrilən Daşkəsən istehsal potensialı ilə "Made in Azerbaijan" brendinin təşviqinə böyük töhfə verir







*Əvvəli 1-ci səh.*

Fəaliyyəti ilə ölkə cəmiyyətindən daim dəstək alan, ənənə ilə novatorluğun, keçmişlə gələcəyin üzvi vəhdətinə nail olan, müasir qloballaşma dövründə istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən Prezident İlham Əliyev ulu öndərin layiqli davamçısı olaraq beynəlxalq miqyasda da ölkəmizin yeganə və alternativsiz lideri kimi qəbul edilir.

### Düşmənin qarşısında mətinliklə dayanan alınmaz qalaya çevrilib

Cənab İlham Əliyevin 14 illik prezidentlik dövrü olduqca mühüm siyasi, sosial-iqtisadi, mədəni-humanitar hadisələrlə əlamətdardır. Onların arasında diqqətçəkən əsas məqamlardan biri 14 ildə Azərbaycanın bölgələrinin inkişaf etməsidir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonların iqtisadiyyatı daha da möhkəmlənib, əhalinin yaşayış səviyyəsi yaxşılaşıb. Bölgələrdə geniş abadlıq və quruculuq işləri aparılıb. Bu sırada Daşkəsən rayonunda görülən işlər də təqdirəlayiqdir. Ötən 14 ildə Daşkəsən rayonunda da geniş tikinti, quruculuq, abadlıq işləri aparılıb, ucqar dağ kəndlərinə yollar çəkilib, körpülər inşa olunub, sakinlərin su, elektrik, qaz təchizatı yaxşılaşdırılıb.

Öncə onu qeyd edək ki, Daşkəsən istər iqlimi, istər yerləşdiyi coğrafi məkan baxımından əksər rayonlardan fərqlənir. Bu rayonda ilin çox hissəsində soyuq və sərt, yayda isə sərin iqlim şəraiti hökm sürür. Buna baxmayaraq, başı qarlı uca zirvələri, bumbuz və gursulu çayları, təmiz və saf havası olan, yayda yaşıllığa bürünən Daşkəsən gözəlliyi və təbiətinin əsrarəngiz mənzərəsi ilə insanın ruhunu oxşayır. Ən əsası isə odur ki, cəbhə xəttində yerləşən düşmənin qarşısında mətinliklə dayanan Daşkəsən uca dağları, sıldırımlı qayaları ilə alınmaz qalaya çevrilib.

Daşkəsənin iqtisadi inkişafı da qürurvericidir. "Daşkəsən Filizsaflaşdırma" kombinatı, "Çovdar" qızıl zavodu, süd zavodu, alunit və mərmər-qranit müəssisələrinin işə düşməsi nəinki bu rayona, bütün ölkəmizə gəlir gətirir. Rayonda ötən illərdə möhtəşəm quruculuq işləri həyata keçirilib, Daşkəsən şəhərinin kanalizasiya və küçələrinin işıqlandırma sistemləri yenidən qurulub, yaşayış binalarında bərpa-gücləndirmə işləri aparılıb, "Bayraq meydanı" yaradılıb.

### 2017-ci ilin ötən dövrü müsbət göstəricilərlə yadda qalıb

Daşkəsən rayonunda 2017-ci ilin 9 ayı ərzində yüksək nailiyyətlər əldə olunub. Belə ki, rayon iqtisadiyyatının əsas sahələrində istehsal olunmuş ümumi məhsul buraxılışının həcmi əvvəlki ilə nisbətən xeyli artıb. Bu dövrdə rayonda 22 milyon 412 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da ötən ilin 9 ayı ilə müqayisədə 6,8 faiz çoxdur. İlin 9 ayında 2 milyon 309 min manatlıq (4,9 faiz çox) nəqliyyat xidmətləri, 17 milyon 519 min manatlıq (7,4 faiz çox) ticarət və ictimai iaşə xidmətləri göstərilib. İlin əvvəlindən indiyədək rayonda 495 yeni iş yeri açılıb.

Daşkəsəndə tikinti, təmir-bərpa, abadlıq-quruculuq işləri də yüksək ahənglə davam etdirilməkdədir. Bu ilin geridə qalan ayları ərzində Daşkəsən şəhərində yeni hotel istifadəyə verilib, rayon məhkəməsinin inzibati binası əsaslı təmir olunub, Dövlət Notariat Kontoru və rayon Qeydiyyat şöbəsi yeni binaya köçürülüb, kənd təsərrüfatı idarəsinin inzibati binasının tikintisi başa çatdırılıb. Daşkəsən Rayon Mərkəzi Xəstəxanasının binasında əsaslı, Qabaqtəpə kənd xəstəxanasında və Xoşbulaq həkim məntəqəsində isə cari təmir işləri aparılıb, Bayan kənd tam orta məktəbinin dam örtüyü yenisi ilə əvəz olunub. Daşkəsən şəhərində 9 çoxmərtəbəli yaşayış binasının təmir işləri isə başa çatmaq üzrədir.

Həmçinin Güneykənd kəndində isə 56 şagirdlik modul tipli yeni məktəb binasının tikintisinə başlanılıb, 8 kənddə polis sahə məntəqələrinin tikintisi başa çatdırılaraq istifadəyə verilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında isə Daşkəsən şəhərində, Daşkəsən qəsəbəsində və Qabaqtəpə kəndində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 3 fərdi yaşayış evinin və Fövqəladə Hallar Nazirliyinin xətti ilə Alunitdağ və Yuxarı Daşkəsən qəsəbələrində və Quşçu kəndində evləri qəza vəziyyətində olan vətəndaşlar üçün 3 fərdi yaşayış evinin tikintisinə başlanılıb. Yaponiyanın Azərbaycandakı səfirliyinin qrantı hesabına "Yuxarı Daşkəsən qəsəbəsində İçməli Su Təchizatının Yaxşılaşdırılması" layihəsinin həyata keçirilməsi də başa çatdırılıb.













### Bu il Daşkəsəndə 85 milyon dollarlıq qızıl hasil olunacaq

Daşkəsən rayonunun iqtisadi potensialı böyükdür. "Yeni Daşkəsən" layihəsi isə bu iqtisadi potensialın tam hərəkətə gətirilməsi məramına xidmət edir. Bu layihə rayon ictimaiyyətinin razılığı ilə qarşılanıb, bəyənilir və dəstəklənir. Layihədə qarşıya qoyulan əsas vəzifələrdən biri "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin işə salınmasına nail olmaqdır. Xatırladaq ki, Prezident İlham Əliyev 17 aprel 2017-ci il tarixdə Yevlax rayonunda keçirilən qeyri-neft ixracatçılarının respublika müşavirəsində bu barədə deyib: "Bizim böyük bir sərvətimiz də var, ancaq ondan səmərəli şəkildə istifadə edə bilmirik. Bu da dəmir filizidir. Hələ çar Rusiyası dövründə, həmçinin sovet vaxtında bizim dəmir filizimizə çox böyük maraq var idi. Hələ çar Rusiyası zamanı Avropadan buraya gəlmiş insanlar, o vaxtın biznesmenləri buna çox böyük maraq göstərirdilər və işləri də təşkil etməyə çalışırdılar. Ancaq əfsuslar olsun ki, müstəqillik dövründə bu sahəyə kifayət qədər diqqət göstərilməmişdir. Əfsuslar olsun ki, biz bu günə qədər vahid bir istehsalat sahəsini yarada bilməmişik. Daşkəsən dəmir filizi yatağı dünya miqyasında böyük yataqlardan biridir və onun indiki vəziyyəti əlbəttə ki, bizi qane edə bilməz. Müxtəlif dövrlərdə müxtəlif təkliflər irəli sürülmüşdür. Hətta dövlət qurumu da yaradılmışdır, ancaq sonra işləyə bilmədi. Özəl sektor da buna vaxtaşırı maraq göstərirdi. Vaxt gəlib çatıb ki, bu məsələ ilə bağlı ciddi addımlar atılsın. Bütün istehsalat zənciri yaradılmalıdır, filizdən başlamış son ixrac məhsuluna qədər".





Daşkəsəndə bu sahədə olan vəziyyətlə bağlı rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyevin fikirlərini öyrəndik. Onun sözlərinə görə, Prezident İlham Əliyevin yürütdüyü inkişaf siyasətindən və rayonumuzun yüksəlişindən qaynaqlanan "Yeni Daşkəsən" ideyasının reallaşması bölgənin iqtisadi həyatında inqilabi dəyişikliklərə gətirib çıxaracaq: "Yeni Daşkəsən" layihəsi elmi əsaslarla işlənib hazırlanıb və rayonun hərtərəfli sosial-iqtisadi inkişafını, mövcud problemlərin həllini əhatə edir. "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin işə salınması layihədə əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının metallurgiya kompleksində sağlamlaşdırma və restrukturizasiya tədbirlərinin həyata keçirilməsi haqqında" sərəncamına əsasən, "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyəti özəlləşdirilməyə açıq elan olunmuşdur. Vaxtilə Daşkəsən rayonunda məşhur olan "Alunit" istehsal müəssisəsi və "Daşkəsən Filizsaflaşdırma" ASC bu gün yenidən işə salınıb fəaliyyəti bərpa olunarsa, nəinki regionumuza, hətta respublikamıza böyük iqtisadi gəlir gətirən müəssisə olacaq, yeni iş yerlərinin açılması ilə işsizliyin aradan qaldırılması ilə nəticələnəcək, həm də Daşkəsən regionda inkişaf etmiş rayona çevriləcək".

Əhəd Abıyev qeyd etdi ki, "Yeni Daşkəsən" layihəsində "Çovdar" qızıl zavodunun işə salınması məsələsi da əsas vəzifə kimi qarşıya qoyulmuşdu. Azərbaycan Prezidenti İlham Əliyevin 11 fevral 2015-ci il tarixli sərəncamı ilə tərkibinə "Çovdar" qızıl zavodunun daxil olduğu "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. Qısa müddət ərzində "Çovdar" qızıl yatağının müasir texnologiyalarla istismarının təşkil edilməsi, zavodun işə salınması üçün müvafiq hazırlıq işləri tam başa çatdırıldı və zavod müasir texnologiyalar əsasında tikildi. Zavodun işə salınması təbii sərvətlərin ən dəyərlisinin emalı ilə yanaşı, həm də rayon əhalisinin işsiz hissəsini hazırda məşğulluqla təmin edir. Əsasən yerli əhalinin mədən sahəsində işə qəbuluna üstünlük verən "AzerGold" QSC-də hazırda 450 nəfər işləyir.

"Həqiqətən, "Çovdar" qızıl zavodunun müasir formada tikilərək hasilata başlaması Daşkəsən rayonunda işsizliyi aradan qaldırmaqla ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafına ciddi təkan verir. Yeni, müasir qızıl zavodunun istehsal edəcəyi yüksək əyarlı brend 999,9 əyarlı Daşkəsən qızılı ölkəmizə valyuta gətirməklə dünyada şöhrət qazanacaq, rayonumuz isə regionda sənaye zonasına çevriləcək" - deyə Əhəd Abıyev bildirir.

Xatırladaq ki, "Çovdar" qızıl zavodunda ixrac üçün hasil olunacaq qızıl və gümüş xəlitələrin miqdarının 2017-ci ilin sonunadək 160 min unsiyaya (70 min unsiya qızıl, 90 min unsiya gümüş) çatdırılması planlaşdırılır ki, bu da qiymətli metalların cari qiymətlərini nəzərə alsaq 85 milyon ABŞ dolları (təqribən 145 mln. manat) təşkil edir.

### 2017-ci il də Daşkəsənin tarixinə sürətli inkişaf dövrü kimi yazılacaq

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Daşkəsən rayonuna aid 25 tədbir nəzərdə tutulmuşdur. Artıq bu tədbirlərin əksəriyyəti yerinə yetirilib.

Daşkəsən həm də ənənəvi kənd təsərrüfatı rayonudur. 2017-ci ilin məhsulu üçün 713 hektar sahədə buğda əkilmiş, 1568,6 ton məhsul istehsal edilmiş, 61 hektar sahədə isə arpa əkilərək 156,6 ton məhsul istehsal olunmuşdur. Cari ilin keçən dövrü ərzində rayon ərazisində 1308,4 hektar sahədə kartof, 83 hektar sahədə kələm, 66,4 hektar sahədə lobya və 4 hektar sahədə qarğıdalı əkilmişdir. Əkilmiş sahələrdən 13087 ton kartof, 1445 ton kələm, 17,4 ton tərəvəz lobyası və 15,2 ton qarğıdalı bitkiləri istehsal olunmuşdur.

Rayonda 2 kartofçuluq üzrə toxumçuluq və 1 damazlıq mal-qara təsərrüfatı fəaliyyət göstərir. Toxumçuluq və damazlıq təsərrüfatlarının artırılması üçün işlər davam etdirilir. Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə hazırda bir kənddə (Quşçu) süni mayalanma məntəqəsi fəaliyyət göstərir. 2017-ci ilin 9 ayı ərzində 137 baş süni mayalandırılmış heyvanlardan 54 baş buzov alınmışdır. Gələcəkdə də məntəqələrin sayının artırılması üçün işlər davam etdirilir.

Bununla belə, rayon sakinləri bəzi çətinliklərlə də üzləşib. Son günlər rayon ərazisində baş vermiş intensiv dolu, leysan yağışları, dağlara yağan qar və külək ilə müşayiət olunan əlverişsiz hava şəraiti Daşkəsən şəhərinin sosial infrastrukturuna ziyan vurub. Təbii fəlakət nəticəsində sel suları şəhərdəki sututucu, ötürücü quyuları, kanalları yararsız hala salıb, şəhərin yolları, yol kənarı istinad divarlarının çox hissəsi uçaraq dağılıb, beton bardürlərin, səkilərin tomet üzlük daşları, yaşayış binalarının fasadları, ümumiyyətlə, şəhərin infrastrukturu bərbad vəziyyətə düşərək şəhər sakinlərinin yaşayış şəraitini çətinləşdirib.

Prezident İlham Əliyev təbii fəlakətin vurduğu ziyanın aradan qaldırılması üçün xüsusi göstəriş verib. Hazırkı vəziyyətlə bağlı icra hakimiyyəti rayonun daxili imkanları hesabına şəhərdə abadlıq-quruculuq, ən əsası, şəhərin dağılmış yollarının yeni asfalt örtüyü salınmaqla təmir-bərpa işlərini həyata keçirir.

Cari ilin ötən dövrünün sosial-iqtisadi göstəriciləri fonunda bu fikri də əminliklə söyləmək olar ki, 2017-ci il Azərbaycanın təbii sərvətlərlə zəngin rayonu olan Daşkəsənin tarixinə sürətli inkişaf dövrü kimi yazılacaq. Qarşıda isə daha mühüm vəzifələr dayanır. Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısını, göstəriş və tapşırıqlarını öz fəaliyyətlərində rəhbər tutan Daşkəsən rayonunun aidiyyəti orqanları bu il ərzində qarşıda dayanan bütün vəzifələri layiqincə və tam həcmdə yerinə yetirəcəklərinə inanırlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***















2003 2017 **Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi**



# Azərbaycan BMT-də maraqlarını layiqincə təmin edir

*Əvvəli 1-ci səh.*

## İlham Əliyev BMT ilə əlaqələrin inkişafına önəm verir

Prezident İlham Əliyev də xarici siyasətdə BMT ilə əlaqələrin inkişafına mühüm önəm verir. Hələ 2003-cü ilin sentyabrında cənab İlham Əliyev Baş nazir statusunda BMT Baş Məclisinin sessiyasında iştirak etmiş, milli sosial-iqtisadi inkişaf, regional və beynəlxalq təhlükəsizliyə qarşı təhdidlərlə bağlı fikirlərini açıqlamışdır. BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında çıxış edən Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan etmiş və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını ümdə məsələ kimi irəli sürmüşdür.

2010-cu ilin sentyabrında BMT Baş Məclisinin 65-ci sessiyasında iştirak edərək dərin məzmunlu nitq söyləyən Prezident İlham Əliyev diqqəti bir daha Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb etmişdir.

Prezident İlham Əliyevin sentyabrın 20-də Nyu Yorkda BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında etdiyi çıxış Azərbaycanın Ermənistana növbəti siyasi-diplomatik zərbəsi kimi tarixə düşdü. Bununla həm də Ermənistanın beynəlxalq səviyyədə ifşası istiqamətində növbəti uğurlu addım atıldı. Prezident İlham Əliyev çıxışında öncə Ermənistanın işğalçılıq siyasətindən və BMT-nin qərarlarının hələ də icra olunmamasından bəhs etdi. Prezidentin xüsusi vurğuladığı məqam isə Ermənistan prezidentini hərbi kriminal adlandırması idi. Tam yerinə düşən bu ifadə hazırda Ermənistana rəhbərlik edən Serj Sarkisyanın terrorçu mahiyyətini bütün incəliklərinə qədər ifadə edir. Ən əsası isə ondan ibarətdir ki, Ermənistan hakimiyyəti S.Sarkisyanın hərbi cinayətkar olduğunu heç vaxt təkzib edə bilmədi.

Prezident İlham Əliyevin sessiyada Dağlıq Qarabağ məsələsi ilə bağlı toxunduğu digər aktual məsələ BMT qətnamələrinin icrasız qalması barədə idi. BMT-nin qərarları 24 il əvvəl qəbul olunsa da, hələ də icra edilməyib. Baxmayaraq ki, ötən müddətdə təşkilatın digər qərarları vaxtında icra olunub. Azərbaycana qarşı olan bu haqsızlıq təəssüf doğurmaqla yanaşı, ölkə ictimaiyyətində dünyanın bu mötəbər təşkilatına olan etimadı da azaldır. Azərbaycan tərəfi dəfələrlə bu məsələni gündəliyə gətirib və qərarların dərhal icra olunması üçün BMT-də islahatların keçirilməsinin zəruriliyini bildirib. Çıxışında bu məsələyə toxunan Prezident İlham Əliyev BMT tribunasından ikili standartlara son qoyulmasını tələb etdi.

Prezident İlham Əliyev BMT Baş Assambleyasındakı çıxışı ilə ölkəmizin və xalqımızın mənafeyini, milli maraqlarını qətiyyətlə qorudu. Təbii ki, bu çıxış Azərbaycan diplomatiyası qarşısında bundan sonra daha yeni hədəflər müəyyənləşdirir. Bu hədəflərin uğurla dəf edilməsi, Ermənistanın diplomatik sıxışdırılması torpaqlarımızın azad edilməsi istiqamətində ən mühüm vəzifələrdən biridir.

## Tarixi diplomatik uğur

2011-ci ildə Azərbaycanın həm beynəlxalq, həm də BMT-dəki diplomatik uğurları sırasına növbəti əlamətdar hadisə əlavə olundu. Həmin il oktyabrın 24-də BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə görə, Azərbaycan bu mötəbər təşkilatın Təhlükəsizlik Şurasına üzv seçildi. Bu möhtəşəm hadisə dövlət müstəqilliyimizin bərpasının 20-ci ildönümünə təsadüf etdiyi üçün cəmiyyətimizin xoş ovqatını daha da rövnəqləndirdi. Bu əlamətdar hadisə münasibətilə bəyanat verərək xalqımızı təbrik edən Prezident İlham Əliyev Azərbaycanın BMT TŞ-yə üzv seçilməsini tarixi nailiyyət kimi qiymətləndirdi.

Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT TŞ-nin üzvü seçilən ilk ölkə olmuşdur. Bununla yanaşı, Azərbaycanın BMT TŞ-nin üzvü olarkən ən mühüm müvəffəqiyyəti 2012-ci ilin may ayında, BMT TŞ-yə sədrlik etdiyi dövrdə terrorçuluğa qarşı mübarizəyə dair öhdəliyin təmin olunması yolu ilə beynəlxalq əməkdaşlığın gücləndirilməsi mövzusunda yüksək səviyyəli konfransın keçirilməsi idi. Bu, Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla ölkəmizin beynəlxalq aləmdə çəkisinin artması, dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunması, regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas aktorlarından birinə çevrilməsi demək idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başçılıq etdiyi konfransda BMT-nin Baş katibi Pan Gi Mun və Təhlükəsizlik Şurasının digər yüksək səviyyəli nümayəndələri iştirak etmişlər.



Ümumiyyətlə, Azərbaycan BMT TŞ-yə üzvlüyü və sədrliyi dövründə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdi, iki il ərzində dünyada sülh və təhlükəsizliyin təmin olunması istiqamətində səylərini davam etdirdi. Ölkəmiz beynəlxalq hüquq normalarının və ədalətin müdafiəsinə çalışdı, TŞ-yə sədrliyi zamanı sülh və beynəlxalq təhlükəsizliyə dair qlobal, yaxud regional əhəmiyyətli məsələlərin gündəliyini müəyyənləşdirdi. Təbii ki, Azərbaycanın bütün məsələlərlə bağlı özünün mövqeyi var idi. Digər tərəfdən, Azərbaycanın BMT TŞ-də fəaliyyəti ərzində diplomatiyamızın səyləri dövlətimizin milli maraqlarının qlobal səviyyədə genişləndirilməsinə yönəldi. Terrordan və işğaldan əziyyət çəkmiş ölkə kimi Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyə yaradılan təhdidləri, o cümlədən Ermənistanın təcavüzkar siyasətini daim gündəmdə saxladı.

## BMT-nin qurum və orqanları ilə fəal əməkdaşlıq edilir

Azərbaycan ötən 25 ildə BMT-nin bir çox xüsusi qurum və orqanları ilə də fəal əməkdaşlıq etmişdir. Bu sırada BMT-nin İnkişaf Proqramı BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, BMT-nin Uşaq Fondu, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan Olunması haqqında Müqavilə Təşkilatı və digər qurumları qeyd etmək olar.

Azərbaycan və BMT-nin Uşaq Fondu (UNICEF) arasında əməkdaşlıq məcburi köçkün, qaçqın uşaq və yeniyetmələr arasında vəziyyətin yaxşılaşdırılması məqsədinə xidmət edir. Azərbaycan UNICEF İcra Heyətinin 1995-1997, 1998-2000-ci illər ərzində üzvü olmuşdur. Respublikamız həmçinin 2000-2002-ci illərdə Qadınların statusu haqqında komissiyanın üzvü olmuşdur. Azərbaycan komissiyanın "Hərbi münaqişələr nəticəsində girov götürülmüş qadın və uşaqların azad edilməsi haqqında" illik qəbul etdiyi qətnaməsinin əsas sponsorudur.

Azərbaycan BMT-nin xüsusi qurumları qismində BMT-nin İnkişaf Proqramı və BMT-nin Sənaye İnkişaf Təşkilatı ilə xüsusi əlaqələrə malikdir. Müxtəlif layihə və proqramlar yaşayış standartlarının yüksəldilməsinə, iqtisadiyyatın struktur tənzimlənməsinin həyata keçirilməsinə xidmət edir. BMT-nin İnkişaf Proqramı Azərbaycanın Bərpa və Yenidənqurma Agentliyinin (ARRA) və Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) imkanlarının inkişaf etdirilməsi, onların maliyyələşdirilməsi yolu ilə münaqişədən sonrakı bərpa prosesinə böyük yardım göstərmişdir.

## UNESCO ilə əlaqələr bəşəri dəyərlərin təşviqinə böyük töhfədir

BMT-nin ixtisaslaşmış qurumu olan UNESCO təhsil, elm və mədəniyyət məsələləri sahəsində beynəlxalq əməkdaşlığın ən böyük hökumətlərarası forumudur. Bu təşkilatın fəaliyyəti ali məqsədə - təhsil, elm, mədəniyyət və kommunikasiya vasitəsilə insanların şüurunda sülhü müdafiə etmək ideyasını möhkəmləndirməyə yönəlib.

Bu gün Azərbaycanla UNESCO arasında sıx əməkdaşlıq münasibətləri mövcuddur. Təbii ki, əlaqələrin yüksələn xətlə inkişafında, möhkəmləndirilməsində, milli-mədəni irsimizin UNESCO xətti ilə bütün dünyada təbliğində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir. Məhz Mehriban Əliyevanın sayəsində UNESCO ilə daha da canlanan əməkdaşlığın nəticəsində Azərbaycanın qədim və zəngin mədəniyyəti milli çərçivədən beynəlxalq səviyyəyə çıxaraq ümumdünya mədəniyyətinin bir hissəsinə çevrilib.

Mehriban Əliyevanın Azərbaycan mədəniyyətinə verdiyi töhfələr UNESCO-nun diqqətindən yayınmayıb. 2004-cü ilin sentyabrında Mehriban xanım Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və UNESCO-nun ideyalarına göstərdiyi sadiqliyə görə bu təşkilatın "Xoşməramlı səfiri" adına layiq görülüb. Bəşəriyyətin maddi və qeyri-maddi mədəni irsinin populyarlaşdırılması, mədəniyyətlərarası dialoqun inkişafı naminə göstərdiyi səylərinə, mədəni müxtəlifliyin möhkəmləndirilməsinə sanballı töhfələrinə görə Mehriban xanım Əliyevaya UNESCO-nun "Qızıl Motsart" medalı da verilib.

UNESCO qeyri-hökumət təşkilatları ilə yaxından iştirak edir. Belə təşkilatlardan biri də Heydər Əliyev Fondudur. Məhz Mehriban Əliyevanın təşəbbüsləri ilə Heydər Əliyev Fondu Azərbaycan mədəni irsinin UNESCO səviyyəsində təbliği istiqamətində mühüm işlər görüb. 2007-ci ildə Heydər Əliyev Fondu, Azərbaycan hökuməti və UNESCO arasında ölkəmizdə peşə təhsilinin inkişafını nəzərdə tutan layihənin icra planına dair saziş imzalanıb. 2009-cu ildə isə Heydər Əliyev Fondu və UNESCO arasında qeyri-maddi mədəni irsin qorunması üzrə strateji hədəflərə nail olmaq məqsədilə əməkdaşlıq sazişi imzalanıb.

İndiyədək Məhəmməd Füzulinin 500 illik, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik, N.Tusinin 800 illik, Mirzə Kazım bəyin 200 illik, akademik Yusif Məmmədəliyevin 100 illik, rəssam-xalçaçı Lətif Kərimovun 100 illik, "Leyli və Məcnun" operasının ilk tamaşasının 100 illik, akademik Musa Əliyevin 100 illik, yazıçı Mir Cəlal Paşayevin 100 illik, rəssam Səttar Bəhlulzadənin 100 illik yubileylərinin UNESCO səviyyəsində qeyd edilməsi ölkəmizlə bu təşkilat arasındakı uğurlu əməkdaşlığın bariz nümunəsidir. Bütün bunlarla yanaşı, Azərbaycan muğamı, xalçası, aşıq musiqisi, tar ifası, Novruz bayramı, kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına, Çövkən-Qarabağ atüstü oyun ənənəsi isə qurumun təcili qorunmağa ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. Eyni zamanda Qız qalası, İçərişəhər, Şirvanşahlar sarayı və Qobustan Dövlət Tarix və Bədii Qoruğu da UNESCO-nun Dünya İrsi Siyahısına salınıb.

Azərbaycan bu gün bir çox mötəbər təşkilatların üzvü olmaqla onların işində yaxından iştirak edir. Belə təşkilatlardan biri olan BMT ilə səmərəli əməkdaşlıq Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında mühüm rol oynamaqla yanaşı, respublikamızın dünya miqyasında nüfuzunun möhkəmlənməsinə, imicinin yüksəlməsinə yol açır. Eyni zamanda bu cür əməkdaşlıq nəticəsində Azərbaycan mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişafına, multikulturalizm dəyərlərinin yayılmasına öz töhfələrini verir.

***Hadi RƏCƏBLİ,***
***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri***

# Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan dünyanın nüfuzlu dövlətinə çevrilib

## Dostluq Assosiasiyasının prezidenti Con Hammond Avstraliyada ölkəmizin əsas təbliğatçılarındandır



**Qarşımızda duran əsas vəzifələrdən biri respublikamız haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasıdır. Təbii ki, bu məsələdə əsas rol xarici ölkələrdə yaşayan soydaşlarımızın, diaspor cəmiyyətlərinin üzərinə düşür. Sevindirici haldır ki, son illər soydaşlarımızın yaratdıqları diaspor təşkilatları daha aktiv fəaliyyətə keçiblər. Diqqət çəkən məqamlardan biri də odur ki, Azərbaycanın xarici ölkələrdə digər millətlərin nümayəndələri olan dostlarının da sayı artmaqdadır. Onlardan biri Avstraliya-Azərbaycan Dostluq Assosiasiyasının prezidenti Con Hammonddur.**

### Layiqli lobbiçilik həyata keçirən dostluq assosiasiyası

Avstraliya Azərbaycandan kifayət qədər uzaqdadır. Bəlkə də buna görədir ki, iki ölkə arasında iqtisadi əlaqələr geniş deyil. Buna baxmayaraq, iki dövlət arasında qarşılıqlı anlaşmaya əsaslanan səmimi siyasi münasibətlər formalaşıb. Azərbaycan Milli Məclisinin Azərbaycan-Avstraliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Xanlar Fətiyevin rəhbərliyi ilə mütəmadi olaraq parlament nümayəndə heyətinin Avstraliyaya səfərinin nəticəsində bu ölkədə Azərbaycanı daha yaxından tanımağa başlayıblar. Artıq Avstraliya həm də hər il Xocalı soyqırımı ilə bağlı çoxsaylı anım tədbirlərinin keçirildiyi ölkələrdən biridir.

Aparılan məqsədyönlü fəaliyyətin nəticəsində Avstraliya İttifaqı beynəlxalq səviyyədə Azərbaycanı daim dəstəkləyir. Con Hammond da Avstraliyada Azərbaycan üçün fəal lobbiçilik fəaliyyəti həyata keçirənlərdən biridir. Pert yaxınlığındakı Kotteslou şəhərinin keçmiş meri Con Hammond hazırda Qərbi Avstraliyada nüfuzlu hüquq şirkətlərindən birinə rəhbərlik edir, eyni zamanda yerli televiziyalardan birinin hüquq məsələləri üzrə şərhçisidir. Onu həmişə Azərbaycanla bağlı keçirilən tədbirlərdə görmək olar. Qərbi Avstraliyada Azərbaycanla bağlı keçirilən tədbirlərin əksəriyyətini də onun rəhbərlik etdiyi Avstraliya-Azərbaycan Dostluq Assosiasiyası təşkil edir.

Oktyabrın 18-də İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə Bakıda keçirilən Azərbaycan-Avstraliya biznes-forumunda iştirak edən Avstraliya nümayəndə heyətinə də Con Hammond başçılıq edirdi. Fürsətdən istifadə edərək onunla Avstraliyada həyata keçirdikləri fəaliyyətlə bağlı söhbətləşdik, həmçinin Azərbaycanla bağlı təəssüratlarını öyrəndik. Öncə ölkəmizə marağının haradan qaynaqlandığından bəhs edərək dedi ki, Azərbaycanın hazırda Avstraliyada fəxri konsulu olan Aydan Rzayeva bir dəfə ona müraciət edərək Dağlıq Qarabağla bağlı Avstraliya parlamentinə çıxarılacaq qətnamə layihəsinin hüquqi baxımdan irəli aparılmasına yardım olunmasını xahiş edib. Azərbaycana ilk maraq da həmin qətnamə layihəsi ilə bağlı hüquqi prosedurların həyata keçirilməsi zamanı yaranıb. "Aydan Rzayeva Azərbaycan diasporunun fəal üzvü kimi tez-tez doğulub boya-başa çatdığı tarixi vətəni Azərbaycanla bağlı tədbirlər təşkil edirdi. Bu tədbirlərdə tək Qərbi Avstraliyada yaşayan azərbaycanlılar deyil, həmin bölgənin tanınmış insanları, siyasətçilər, Qərbi Avstraliya parlamentinin üzvləri, yerli özünüidarəetmə orqanlarının nümayəndələri də iştirak edirdilər. Həm bu tədbirlərdə iştirak edərək, həm də qətnamə layihəsi ilə bağlı əməkdaşlıq nəticəsində Azərbaycanı tanımağa başladım. Azərbaycanın tarixini, yerləşdiyi bölgədəki strateji əhəmiyyətini, son illərdə neft məsələlərində aparıcı rol oynadığını yaxından öyrəndim. Ən əsası, azərbaycanlıları daha yaxından tanıdım, qonaqpərvərliyinizi gördüm. Beləliklə, məndə Azərbaycan xalqına qarşı böyük ehtiram yarandı və fəxr edirəm ki, bu gün Avstraliya-Azərbaycan Dostluq Assosiasiyasına rəhbərlik edirəm".

### Azərbaycandakı tolerantlığa dünyada nadir hallarda təsadüf oluna bilər

Qeyd edək ki, bu, C.Hammondun Azərbaycana sayca dördüncü səfəridir. Deyir ki, hər dəfə Bakıya gələndə mütləq müsbətə doğru dəyişikliklərin, inkişafın şahidi olur və paytaxtımızın bir-birindən yaraşıqlı küçələri, müasir üslubda aparılan möhtəşəm quruculuq işləri Bakını dünyanın ən modern şəhərlərindən birinə çevirib. "Bakıya hər səfərimdə yeniliklərin şahidi oluram, şəhər sürətlə dəyişir. Gözəlliyi, infrastrukturu ilə Bakı yalnız dünyanın və Avropanın ən qabaqcıl şəhərləri ilə müqayisə oluna bilər. İnanıram ki, bu sürətli inkişaf dinamikası ilə Bakı qısa müddətdə daha böyük uğurlar əldə edəcək. Mənim Bakıda diqqət yetirdiyim əsas məsələlərdən biri də insanların gülərüz və səmimi olmasıdır. Əgər Bakıda yolu azsan, azərbaycanlılar mütləq sənə kömək edəcəklər. Ona görə Bakı məndə həmişə yüksək əhvali-ruhiyyə yaradır".

Azərbaycandakı tolerantlıqla da bağlı fikirləri maraqlı oldu. Onun sözlərinə görə, Azərbaycandakı tolerantlığa dünyada nadir hallarda təsadüf edilə bilər. Azərbaycan həm də malik olduğu multikulturalizm dəyərlərinə görə dünyada sayılıb-seçilən ölkədir. C.Hammond daha sonra qeyd etdi ki, Azərbaycandakı dövlət-din münasibətlərinin sağlam təməl üzərində formalaşması nümunəvi uğurdur. Ən mühüm nailiyyət isə Azərbaycanda dini ekstremizmin olmamasıdır. Burada digər müsəlman ölkələrindən fərqli olaraq dini radikalizmə rast gəlmək mümkün deyil. Hətta Avstraliyada dinlə bağlı məsələlər bəzi problemlər yaradıb. Amma Azərbaycanda belə deyil.

"Mən Azərbaycan əhalisinin əsasən müsəlmanlardan ibarət olduğunu biləndə təsəvvürlərim başqa cür idi. Bakıya gəldikdən sonra isə Azərbaycanın dünyəvi, modern, sivil ölkə olduğunu gördüm. Bütün bunlar məndə xalqınızla bağlı xoş təəssürat yaratdı. Digər tərəfdən, Azərbaycanda təhlükəsizlik və sabitlik yüksək səviyyədə təmin olunur. Ona görə Azərbaycanla bağlı təəssüratlarım yüksəkdir" - deyə C.Hammond bildirir.

### Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır

C.Hammond Bakıya səfərləri çərçivəsində Prezident İlham Əliyevlə görüşə bilib. Prezident İlham Əliyevlə elə ilk görüşdən sonra onun əsl siyasətçi, öz ölkəsinin rifahı naminə əzmlə çalışan dövlət başçısı olduğunu görüb: "Azərbaycanı yaxından izləyən bir adam kimi bilirəm ki, son illərdə ölkənizin qazandığı uğurlar çoxdur. İstər iqtisadi sahədə, istər beynəlxalq münasibətlərdə Azərbaycan mühüm nailiyyətlər əldə edib. Ona görə Azərbaycan indi Qafqaz bölgəsinin lider dövlətidir. Azərbaycan həm də uğurlu enerji diplomatiyası həyata keçirərək bir çox ölkələr üçün strateji tərəfdaşa çevrilib. 6 il əvvəl BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi də ölkənizin tarixi qələbəsi idi. Ölkənizdə işsizliyin səviyyəsi aşağı, savadlılıq göstəricisi, insanların orta ömrü yüksəkdir. Azərbaycan cəmiyyətində orta təbəqə də formalaşıb. Bütün bunlar 25 ildə əldə olunan kifayət qədər böyük uğurlardır. Bu uğurların əldə olunmasında təbii ki, dövlətin həyata keçirdiyi siyasi kurs əsas rol oynayıb. Bütün bunları bir-bir təhlil etsək Azərbaycan Prezidentinin uzaqgörən siyasətçi olduğunu görərik".

Azərbaycan Prezidenti ilə son görüşünü xatırlayan C.Hammond dedi ki, cənab İlham Əliyev həmin görüşdə iki məsələni xüsusi qeyd etmişdi. Bunlardan biri ondan ibarət idi ki, Azərbaycan dünyəvi və hüquqi dövlətçilik yolu ilə inkişaf edəcək. İkinci məsələ odur ki, İlham Əliyev Azərbaycanın daha da inkişafı baxımından ölkədə təhsilə önəm verildiyini qeyd edib. Bu iki məsələnin dövlətin güclənməsi üçün böyük əhəmiyyəti var.

Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün böyük səy göstərdiyini deyən C.Hammond bildirdi ki, Avstraliya Azərbaycan torpaqlarının işğalı faktını qəbul edir: "Mən də Azərbaycan ərazilərinin işğal edildiyi qənaətindəyəm. Bir hüquqşünas kimi, BMT-nin qətnamələrini də araşdırmışam. Həmin sənədlərdə də Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılması tələb olunur. Bu münaqişə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması çərçivəsində öz həllini tapmalıdır".

### Azərbaycanda əlverişli biznes və investisiya mühiti mövcuddur

Bakıda keçirilən biznes-foruma gəldikdə C.Hammond Avstraliyanın Azərbaycana investisiya qoymaqda maraqlı olduğunu bildirib. Azərbaycanda əlverişli biznes imkanlarının mövcud olduğunu deyən həmsöhbətim vurğuladı ki, iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi planlaşdırılır. "Azərbaycanda əlverişli investisiya mühiti mövcuddur. Azərbaycan dayanıqlı iqtisadi inkişafa malikdir. Burada kifayət qədər peşəkar kadr var. Bakıda bir neçə müvafiq qurumla əməkdaşlığa dair görüşlər keçirildi. Avstraliya Azərbaycanla neft sənayesi, maliyyə sektoru və kənd təsərrüfatı sahələrində əməkdaşlığı genişləndirəcək", - deyə C.Hammond bildirdi.

Onun sözlərinə görə, Avstraliyadan Azərbaycana süd məhsulları satmaq üçün geniş imkanlar var və yəqin ki, bu baş verəcək. Azərbaycan isə sərinləşdirici içki məhsullarını Avstraliyaya ixrac edə bilər. Məsələn, Avstraliya nümayəndə heyətinin tərkibində olan bir nəfər Maldiv adalarında hotel sahibidir. O, Azərbaycanda istehsal olunan pivə məhsullarını Maldiv adalarına idxal etmək istəyir. Avstraliyadan isə Azərbaycana digər qida məhsullarının ixracı mümkündür. Artıq biznes qurumları arasında müvafiq razılaşmalar əldə olunub.

Qeyd edək ki, Avstraliyanın dağ-mədən sənayesində olduqca böyük təcrübəsi var. Bu barədə danışan C.Hammond dedi ki, Azərbaycanın neft-qaz sahəsində təcrübəsi necədirsə, Avstraliyanın da dəmir filizi hasilatında təcrübəsi elədir: "Avstraliyada bu sahədə görülən işlərin tarixi 200 ildən artıqdır. Azərbaycanın isə zəngin mis və qızıl ehtiyatları var və bu, sərmayə yatırmaq üçün Azərbaycanı Avstraliya iş adamlarına cəlbedici edir. Bu istiqamətdə artıq ilkin anlaşma əldə olunub".

Azərbaycan iqtisadiyyatının inkişafının məmnunluq doğurduğunu deyən C.Hammondun sözlərinə görə, ölkənizdə iqtisadiyyatın diversifikasiyası istiqamətində həyata keçirilən tədbirlər təqdirəlayiqdir. Prezident İlham Əliyevin iqtisadi siyasətində prioritet neft gəlirlərindən asılılığın aradan qaldırılması və qeyri-neft sektorunun inkişafıdır. Bütün bunlardan irəli gələrək Avstraliya şirkətləri Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrinə sərmayə yatıra bilərlər.

### Ölkəmizlə bağlı həqiqətlər Avstraliya cəmiyyətinə çatdırılır

C.Hammond rəhbərlik etdiyi Dostluq Assosiasiyasının fəaliyyəti ilə də bağlı ətraflı danışdı. Onun sözlərinə görə, bu gün Avstraliyanın qərbində yaşayan azərbaycanlılarla və bu ölkəni sevən digər insanlarla əlaqəli şəkildə Azərbaycanın güclü şəkildə təşviq olunmasını həyata keçirirlər. Azərbaycanın bütün dövlət və milli bayramlarında, o cümlədən 20 Yanvar və Xocalı soyqırımlarının ildönümlərində Avstraliya-Azərbaycan Dostluq Assosiasiyası və fəxri konsulluq geniş tədbirlər təşkil edir.

"Xüsusi qeyd etmək istəyirəm ki, assosiasiyanın fəaliyyətinə Qərbi Avstraliya parlamentinin deputatları da dəstək verirlər. Onlar bizim tədbirlərimizdə yaxından iştirak edir, Azərbaycan həqiqətlərinin Avstraliyada yayılmasında bizə yaxından dəstək verirlər. Məsələn, bu ilin fevralında Azərbaycanın Avstraliyadakı fəxri konsulluğu və Dostluq Assosiasiyası tərəfindən təşkil edilən tədbirdə Avstraliyanın federal parlamentinin deputatları, Pert şəhərində yaşayan həmyerlilərimiz, ictimai xadimlər, media təmsilçiləri, şəhər sakinləri iştirak etdilər. Çıxışımda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Xocalı soyqırımı barədə məlumat verdim. Həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasının faciənin həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rolunu qeyd etdim. Xüsusilə qeyd etmək istəyirəm ki, həmin tədbirdə Azərbaycan Milli Məclisinin nümayəndə heyəti, o cümlədən Avstraliya parlamentindəki dostlarımız iştirak edirlər".

C.Hammond bundan sonra da Azərbaycanla Avstraliya arasında dostluq əlaqələrinin genişlənməsi üçün səylə fəaliyyət göstərəcəyini, bu məqsədlə iki ölkənin müvafiq siyasi və iqtisadi dairələrinin təmsilçilərinin daha çox qarşılıqlı səfərlərinin təşkil olunmasına çalışacağını bildirdi. Qeyd etdi ki, qarşılıqlı səfərlərin intensivləşməsi ancaq ümumi işimizin xeyrinə olar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bakı Metropoliteni – 50



**Azərbaycanın inkişafına zəmin yaradan iqtisadi faktorlardan çox söz açmaq olar. Əlbəttə, bütün bunlar, sadəcə, potensial ehtiyatlara söykənmir. Bu tərəqqinin əsasında ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi sosial-iqtisadi inkişaf strategiyası və bu xüsusda verilən qərarlar dayanır. Müstəqilliyin ilk illərində maddi-texniki bazası köhnəlməkdə olan metropolitenin ayağa qaldırılmasında Heydər Əliyevin danılmaz rolu, daha sonra onun yeni inkişaf mərhələsində İlham Əliyev faktorunun böyük əhəmiyyəti olub.**



## Yeni texnoloji inkişaf mərhələsinə doğru

Hər inkişafın davamlılığı, perspektivləri verilmiş qərarlardan və onun özünü əməldə doğrultmasından asılıdır. Bunu Bakı Metropoliteninin nümunəsində də bariz müşahidə etmək olar.

2014-cü il fevral ayının 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" sərəncamına əsasən, Bakı Metropoliteni və "Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə səhmləri dövlətə məxsus "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. Elə həmin gün ölkə rəhbərinin digər sərəncamı ilə Zaur Mir Tofiq oğlu Hüseynov "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin edildi.

Yeni dövrün tələblərinə və qarşıya qoyulan vəzifələrə uyğun olaraq, ötən qısa müddətdə görülən işləri ümumi qiymətləndirsək, innovativ texnologiyaların və elmi-texniki tərəqqinin son nailiyyətlərinin tətbiqi, Avropa standartlarına keçidin başlıca meyara çevrilməsi, günün tələbləri ilə ayaqlaşmağı bacarması, qabaqcıl təcrübəyə uyğun yeni tipli kadrların işə qəbulu və yetişdirilməsi, işə münasibətin təkmilləşdirilməsi, sosial mahiyyətli tədbirlərin genişləndirilməsi və dərinləşdirilməsi xüsusi diqqətdə saxlanması kimi vəzifələrin uğurla icra edilməsi dövlət başçısının Bakı metrosunun inkişafında yeni mərhələyə nail olmağın ən doğru yolunu müəyyənləşdirdiyini göstərdi.

"Bakı Metropoliteni" QSC fəaliyyətinin ilk günlərindən sərnişindaşıma xidmətinin keyfiyyətinin yüksəldilməsi, qatarların hərəkətinin və sərnişindaşımanın təhlükəsizliyinin təmin edilməsi kimi mühüm vəzifələrlə yanaşı, sərnişinlərin metropolitendən sərbəst istifadəsini məhdudlaşdıran, təbii ventilyasiyaya xələl gətirən, təhlükəsizliyə və istismar qaydalarına zidd olaraq fəaliyyət göstərən bütün ticarət obyektlərini metro ərazisindən kənarlaşdırmağa nail oldu. Bu qərar geniş ictimai dəstək aldı. Qısa müddətdə keçidlər bu ticarət köşklərindən təmizləndi. Onların yerində dövri, eləcə də əsaslı təmir işləri aparıldı. Dövri təmir işləri 2014-cü ilin aprel ayına kimi bütün stansiyalarda başa çatdırıldı. Eyni zamanda metro stansiyalarının memarlıq üslubuna xələl gətirmədən, sərnişin axınına maneə yaratmadan reklam işinin təşkili və ona yanaşmaya münasibət köklü dəyişərək, tamamilə müasir formada və müəssisə daxilində hazırlanmaqla tənzimlənərək həyata keçirilməsinə də başlandı.

Təbii ki, bütün bunlar yeniləşmə erasının başlanğıcını göstərən, həmçinin Bakı metrosunun imicini özünə qaytaran addımlar idi. Yeni texnologiyalar erasının ilk böyük addımı da elə həmin dövrdə atıldı. 2014-cü ilin may ayının 12-də Fransa Prezidenti Fransua Ollandın rəsmi səfəri çərçivəsində hər iki dövlət başçısının iştirakı ilə keçirilən Azərbaycan-Fransa biznes forumu Bakı Metropolitenində perspektiv inkişaf layihəsi ilə bağlı gələcək inkişafın ilk praktiki addımlarının başlanğıcı oldu. Fransanın aparıcı şirkətləri ilə metropolitendə texnoloji innovasiyanın tətbiqinin təməlini qoyan 5 anlaşma memorandumu imzalandı.












Bu yeniləşmənin ilk sorağı bir ilə yaxın müddətdən sonra əyani nümayiş etdirildi - Bakıya Avropa ölkələrində, ya da teleekranlarda, mətbuatda gördüyümüz yeni nəsil qatarlarının 15 vaqondan ibarət ilk nümunələri gətirildi. Fransanın "Alstom" şirkəti ilə bağlanan müqavilə əsasında, həmin şirkətin bloklayıcı paketinin sahibi olduğu "Transmaşholdinq" şirkətinin zavodunda istehsal olunmuş 3 yeni nəsil qatar 2015-ci ilin aprel ayının 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə təqdim olundu. Sonuncu - 4-cü nəslə mənsub və idarə edilməsi mikroprosessor sistemləri əsasında həyata keçirilən bu qatarlar kondisonerləşdirilməsi, mikroiqlim nəzarəti və müasir elektron informasiya, videomüşahidə sistemləri ilə təchiz olunması ilə diqqət çəkir. Paslanmayan poladdan hazırlanan bu qatarların yerli mürəkkəb geoloji şəraitə uyğunluğu ilə yanaşı, Bakı Metropoliteninin texniki tapşırıqları nəzərə alınaraq, əvvəlki hərəkət tərkiblərindən fərqli olaraq, yeni nəsil qatarlar vaqonlararası birbaşa keçidlə təmin edilib. Bu isə qatar boyunca sərnişinlərin rahat hərəkətini, onların bərabər paylaşmasını təmin edən əsas faktorlardan biridir. Sərnişin rahatlığı məqsədilə tutacaqların daha praktik yerləşdirilməsi, həmçinin onların müvafiq dizaynı və forması ilə bağlı təkliflər də bu qatarlarda öz əksini tapıb. Yeni vaqonlar sərnişin tutumu baxımından da üstün olaraq, 330 nəfər üçün nəzərdə tutulub.

Azərbaycan Prezidentinə depoda qısa vaxtda Bakı Metropoliteninin infrastrukturunun beynəlxalq standartlara uyğun yenidənqurulması istiqamətində görülmüş əhəmiyyətli işlər, qarşıda dayanan əsas vəzifələr də nümayiş etdirilib. Bu mənada, "Bakı Metropoliteni" QSC-nin texniki sifarişləri də nəzərə alınaraq, istehsal olunmuş diaqnostika kompleksi xüsusi əhəmiyyətə malikdir. Elə həmin ilin sonunda Moskvada keçirilən mötəbər elmi-praktik sərgi-konfransda məhz Bakı Metropoliteninin təklifləri əsasında funksionallığı zənginləşdirildiyi üçün "analoqu olmayan" kimi qiymətləndirilən bu diaqnostika kompleksinin böyük rolunu ötən dövr də əyani nümayiş etdirib. Metropolitenin bir çox infrastrukturunun işinin tənzimlənməsində və yenidən qurulmasında, təhlükəsizliyin təmin olunmasında, əhəmiyyətli yeniliklərin tətbiqində kompleksin əhəmiyyəti xüsusidir. Tamamilə yenidən qurulub, müvafiq avadanlıq və cihazlarla təmin edilmiş bu sahə artıq metropoliten infrastrukturuna obyektiv texniki qiymət verən ən mühüm vasitəyə çevrilib. İndi onun təcrübəsi beynəlxalq miqyasda öyrənilir. Kompleks yolların rəvanlığının, təhlükəsizliyinin texniki tələblər səviyyəsinə çatdırılmasında əhəmiyyətli rol oynayır və iki il ərzində ən yüksək texniki göstərici səviyyəsinə çatdırılıb. Hazırda müvafiq texniki normativlərlə Bakı metrosunun yolları "əla" və "yaxşı" qiymətləndirməklə, nəinki "qeyri-kafi", hətta "kafi" yollar da qalmayıb. Bakının ağır hidrogeoloji şəraitində metropoliten tunellərinin arxasında qalan yeraltı sahələr də bu kompleks sayəsində artıq elmi-texniki potensial nailiyyəti tətbiq olunaraq öyrənilir, işin həcmi müəyyən olunur və müvafiq qabaqlayıcı tədbirlər görülür. Əvvəllər isə bütün bunlar kortəbii qaydada aparılırdı. Bununla yanaşı, metropoliten yolları və tunellərinin texniki infrastrukturunda bir çox spesifik, ələlxüsus da bir-biri ilə sıx təmasda olan sahələrin işinin tənzimlənməsi, problemlərin mənbəyinin öyrənilməsi və aradan qaldırılması baxımından diaqnostika kompleksi əhəmiyyətli vasitəyə çevrilib.

Metropolitenin əsas vəzifəsi sərnişinə rahat və təhlükəsiz daşıma xidməti təklif etməkdir. Bunun təməlində isə idarəetmə və operativ qərarlar dayanır. Metropoliten infrastrukturunun bütün fəaliyyətinin təməlində dayanan və əsas hərəkətverici qüvvəsi dispetçer mərkəzləridir. Bu sahədə mühüm yeniləşmə işləri 2015-ci ildə həyata keçirildi. 1967-ci ildən bu günədək fəaliyyətdə olan dispetçer idarəetməsi tam yeni əsaslarla qurularaq təhvil verildi. 2015-ci il yanvarın 19-da "Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynovun imzaladığı əmrlə qatarların hərəkətinə, avtomatika və telemexanika avadanlıqlarına nəzarətin dispetçer mərkəzinə ötürülməsi ilə bağlı işlərə başlanıldı. Həmin il aprelin 1-dən metropolitendə hərəkətin təşkilində ən mühüm mərkəz, beyin rolunu oynayan dispetçer mərkəzi yeni qərargahında fəaliyyətə başladı. Ən münasib şəraitlə təmin edilmiş dispetçer mərkəzləri həm də müasir avadanlıqlarla və idarəetmə sistemləri ilə təchiz olunub. Burada bütün sistem müasir mikroprosessor və elektron idarəetməsi üzərində qurulub. Əvvəlki dövrün lampa-işıq siqnallarından fərqli olaraq, yeni mərkəzdə interaktiv sistemlər quraşdırılıb, ekranda qatarların hərəkəti və stansiya adlarının əks olunması diqqəti çəkir. Mərkəzin bütün idarəetməni həyata keçirməsini nəzərə alaraq, otağın təchizatı zamanı, onun erqonomikasına, səs-küyün həddinə də diqqət edilib. Sistemin yenilənməsinin təməlində isə mühüm bir əsas dayanır. Mövcud xətlər gələcəkdə SCADA sisteminə keçirilərsə, artıq bu işin böyük hissəsi həllini tapmış olacaq.

İdarəetmənin ən optimal formasını təşkil edən SCADA sistemləri, ilk olaraq, yeni xətlərdə tətbiq ediləcək.

**Bəxtiyar ƏZİZLİ,**
***"Azərbaycan"***

## Dövlət qulluqçuları ilk mühazirələrini Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbində dinləyiblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 22 sentyabr tarixli fərmanına əsasən dövlət idarəçiliyi və icra hakimiyyəti orqanları üçün müvafiq ixtisaslar üzrə mütəxəssis hazırlığını həyata keçirən aparıcı tədris, metodik, elm və analitik informasiya mərkəzi kimi fəaliyyət göstərən Dövlət İdarəçilik Akademiyasının (DİA) magistr pilləsinə 2017-2018-ci tədris ilində qəbul olunan dövlət qulluqçuları ilk mühazirələrini DİA-nın Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbində dinləyiblər.

AZƏRTAC xəbər verir ki, iştirakçılar əvvəlcə Heydər Əliyev Mərkəzinin dəstəyi ilə akademiyada fəaliyyət göstərən Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi ilə tanış olublar.

Heydər Əliyev Mərkəzinin Heydər Əliyev irsinin tədqiqi və elmi araşdırmalar departamentinin direktoru Məhəbbət Mehdiyeva Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi haqqında məlumat verərək qeyd edib ki, məktəb ümummilli lider, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin siyasi irsinin, azərbaycançılıq məfkurəsi və dövlətçilik fəlsəfəsinin təbliği məqsədilə yaradılıb. M.Mehdiyeva ulu öndər Heydər Əliyevin elmə, savada, biliyə böyük diqqətlə yanaşdığını, dövlət idarəçiliyində çalışan gənc kadrlara xüsusi önəm verdiyini vurğulayıb və bu baxımdan dövlət qulluqçularının ilk mühazirələrinin məhz buradan başlamalarının əhəmiyyətli olduğunu deyib.



Azərbaycan Respublikası Prezidenti Administrasiyası, Nazirlər Kabineti, Milli Məclis, Naxçıvan Muxtar Respublikası, mərkəzi icra hakimiyyəti orqanları, müxtəlif nazirliklər, şəhər və rayon icra hakimiyyətləri və digər dövlət orqanlarında çalışan 75 rəhbər kadrın iştirak etdiyi tədbirdə DİA-nın rektoru akademik Urxan Ələkbərovun "Azərbaycan Respublikasının dövlət idarəetmə modelinin uğuru: ölkənin nailiyyətləri beynəlxalq təşkilatların hesabatlarında" mövzusunda mühazirəsi dinlənilib. Rektor ümummilli lider, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən bəhs edib, Ulu öndərin siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən əzmlə davam etdirildiyini diqqətə çatdırıb. O, bu gün əldə edilmiş nailiyyətlərin əsasında Prezident İlham Əliyevin həyata keçirdiyi innovativ inkişaf strategiyasının dayandığını bildirib. Rektor innovativ inkişaf strategiyasının reallaşdırılmasında Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi rolunu qeyd edib və bu sahədə dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyətinin, xüsusən də Heydər Əliyev Fondunun önəmli fəaliyyətinə diqqət çəkib.

Mühazirədə ölkə iqtisadiyyatının sürətli inkişafı istiqamətində aparılan uğurlu siyasətin əsas hədəfləri, eləcə də davamlı inkişafa təsir edən amillər müqayisəli şəkildə təhlil edilib. Azərbaycanın bir çox istiqamətlərdə regional və qlobal liderə çevrildiyini qeyd edən rektor ölkəmizin inkişaf göstəricilərinin bir çox beynəlxalq təşkilatların, o cümlədən BMT, Dünya Bankı və digər nüfuzlu qurumların rəsmi sənədlərində, müstəqil ekspertlər tərəfindən hazırlanmış hesabatlarda öz təsdiqini tapdığını vurğulayıb. Eyni zamanda, o bildirib ki, 2017-ci ilin martında BMT-nin və 2017-ci ilin may ayında Dünya Bankının dərc etdirdikləri hesabatlarda əksini tapan innovativ insan potensialına əsaslanan davamlı inkişaf göstəricilərinə görə, Azərbaycan hazırda dünya liderləri sırasındadır. Sosial göstəricilərdən də bəhs edən akademik beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq ölkənin bu baxımdan da qısa müddətdə sürətlə inkişaf etdiyini və bir sıra inkişaf etmiş dövlətləri geridə qoyduğunu diqqətə çatdırıb. Ölkənin davamlı inkişafının əsas amilinin insan potensialı olduğunu vurğulayan rektor qeyd edib ki, davamlı inkişaf dünyanın ən böyük prioriteti olduğu üçün BMT-nin 2015-ci ildə keçirilən yubiley sessiyası və digər mühüm beynəlxalq sammitlər də bu mövzuya həsr olunub. 2015-2030-cu illər üçün qəbul edilmiş məqsədlər "Davamlı inkişaf hədəfləri" kimi tarixə düşüb. Azərbaycan həmin tədbirlərdən çox əvvəl davamlı inkişafı dövlət strategiyasının prioritet istiqaməti kimi qəbul edib. Respublikamızın "Böyük yeddilik" ölkələri ilə müqayisədə nəzərəçarpan inkişaf göstəricilərini diqqətə çatdıran akademik deyib ki, bu mühüm iqtisadi nailiyyətlər torpaqlarımızın 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı fonunda qazanılıb. Ölkəmizin bu problemləri olmasaydı, qazanılacaq uğurların miqyası daha böyük ola bilərdi.

Rektor qeyd edib ki, ulu öndər Heydər Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılmasının məqsədi dövlət idarəetmə sahəsi üçün mütəxəssislər hazırlanması işinin müasir tələblərə uyğun qurulması, onların peşəkarlıq səviyyəsinin artırılması, dövlət idarəçiliyi sahəsində elmi-tədqiqatların təşkili və həmin sahənin analitik-informasiya təminatının möhkəmləndirilməsi kimi müəyyən edilib. U.Ələkbərov akademiyanın dövlətimizin möhkəmləndirilməsi və elmi əsaslarla idarə olunması, yeni idarəetmə mədəniyyətinin formalaşması və inkişafı baxımından xüsusi əhəmiyyətə malik olduğunu, DİA-nın dövlət qulluğu üçün kadrların hazırlanması, təkmilləşməsi və ixtisasının artırılması məsələləri üzrə əsas elmi-metodiki və tədris mərkəzi olduğunu dövlət qulluqçularının diqqətinə çatdırıb.

Sonra dövlət qulluqçularının sualları cavablandırılıb.

## Cocuq Mərcanlının günəşli payızı

*AZƏRTAC-ın əməkdaşları aprel döyüşlərindən sonra ikinci həyatını yaşayan Cocuq Mərcanlıda olub*





Azərbaycan Ordusunun 2016-cı ilin uğurlu aprel döyüşlərindən sonra Cəbrayıl rayonunun yenidən qurularaq ikinci həyatına qovuşan Cocuq Mərcanlı kəndi hər bir azərbaycanlının gedib görmək istədiyi doğma Qarabağımızın bir parçasıdır. Hər kəs 24 illik həsrətdən sonra bu vətən torpağını görməyə, o yerlərin havasını udmağa, suyundan içməyə, torpağına ayaq basmağa can atır.

Prezident İlham Əliyevin sərəncamı ilə gözəl, abad qəsəbəyə çevrilən bu məkanın yeni həyatını gözləri ilə görmək, uzun yurd həsrətindən sonra doğma torpaqlarına, xarabalıq üzərində yenidən ucalan yurd-yuvalarına dönmüş Cocuq Mərcanlı sakinlərinin sevincinə şərik olmaq üçün bura üz tutan qonaqların ardı-arası kəsilmir. Cocuq Mərcanlının növbəti qonağı burada baş verənləri anbaan izləyən, bu informasiyaları həm ölkə vətəndaşlarına, həm də dünyaya çatdıran Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın bir qrup əməkdaşı olub.

Agentliyin jurnalistlərinin günəşli bir payız gününə təsadüf edən Cocuq Mərcanlı səfəri Horadiz-Cəbrayıl avtomobil yolunun kənarındakı "Aprel şəhidlərinə xatirə" abidəsini ziyarətlə başladı, qəhrəman vətən övladlarının xatirəsi ehtiramla anıldı.

Kollektivin üzvləri sonra şəhid Novruz Aslanov adına tam orta məktəbə gəldilər. Yeni qəsəbədəki yeni müasir məktəb qapılarını müəllim və şagirdlərin üzünə təxminən iki ay əvvəl açıb. İyirmi dörd il sürən fasilədən sonra Cocuq Mərcanlıda ilk dəfə məktəb zəngi səslənib: 16 müəllim və 60 şagird sinif otaqlarına qədəm qoyub. Bazar günü olmasına baxmayaraq, onların bir çoxu AZƏRTAC-ın əməkdaşları ilə görüşə toplaşmışdı. Qonaqlar sinif otaqlarını, fənn kabinetlərini bir-bir gəzib müəllim və şagirdlərlə həmsöhbət oldular. Məktəbə müxtəlif dərs və idman ləvazimatları hədiyyə edildi. Agentliyin Baş direktoru Aslan Aslanov müəllim və şagirdləri doğma yurda qovuşmaları münasibətilə kollektiv adından təbrik etdi, onların sevincini bölüşdü. Bu gözəl təhsil ocağında tədrisin yüksək səviyyədə aparılacağına əminliyini bildirdi, onlara uğurlar arzuladı.

Görüşün ən təsirli məqamlarından biri AZƏRTAC-ın əməkdaşı Dağbəyi İsmayılovun nəvəsi Bakı məktəblisi Nuray İsmayılovanın Cocuq Mərcanlı məktəbinin üçüncü sinif şagirdi Nuray Aslanovaya göndərdiyi məktub və kitab oldu. Cocuq Mərcanlıdakı adaşını və onun məktəbli yoldaşlarını qaranquşlara bənzədən Nuray arzularını dilə gətirərək yazır: "Babamın yurdu Qubadlı da düşmən işğalı altındadır. Çox arzu edirəm ki, bütün torpaqlarımız tezliklə düşməndən təmizlənsin, mən də sənin kimi babamın kəndinə gedim, o gözəl yerləri görüm".

Erməni təcavüzü, Qarabağ müharibəsi hər iki Nurayın taleyində acı izlər qoyub. Balaca qızların hər ikisinin əmisi - Elgün İsmayılov və Novruz Aslanov düşmənlə döyüşdə şəhid olub. Bu, görüş iştirakçılarını son dərəcə mütəəssir etdi. Yeri gəlmişkən, Cocuq Mərcanlı kənd tam orta məktəbi şəhid Novruz Aslanovun adını daşıyır.

Səfərdən xatirə olaraq AZƏRTAC-ın jurnalistləri məktəbin həyətində Eldar şamları əkdilər. Məktəbin direktoru Zamin Həziyev onlarla görüşə gəldiklərinə, mənəvi dəstək olduqlarına görə AZƏRTAC-ın əməkdaşlarına minnətdarlığını bildirdi.

Cocuq Mərcanlıda tikilən Şuşa məscidinin bənzəri olan məscidlə tanışlıq da qonaqlarda unudulmaz təəssürat yaratdı. Burada şəhidlərin ruhuna dua oxundu.

Jurnalistlər daha sonra kənddə aparılan quruculuq işlərinin növbəti mərhələsi çərçivəsində tikintisi gedən yeni evlərə və binalara da baxdılar. Bu mərhələdə 100 evin, uşaq bağçasının, poçt, tibb məntəqəsi və klub-icma mərkəzi üçün binaların və digər infrastruktur obyektlərinin tikintisi aparılır.

Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının müavini Tapdıq Nəsirov, kənd icra nümayəndəsi Xanlar Zeynalov, Cocuq Mərcanlını ən çətin anlarda belə tərk etməyən, dövlət başçısının sərəncamı ilə birinci dərəcəli "Əmək" ordeninə layiq görülən Oqtay Həziyev və qəsəbə sakinləri söhbət zamanı onlara bu şəraiti yaradan, məcburi köçkünlərə daim diqqət və qayğı göstərən Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya minnətdarlıq duyğularını dilə gətirdilər, işğal altındakı bütün torpaqlarımızın azad olunacağına inamlarını ifadə etdilər.




# Şəkinin dağətəyi kəndləri üçün şans yaranır



*Kiş, Baş Küngüt və Bideyiz kəndlərində "ailə turizmi" inkişaf etməyə başlayıb*

Turizm ölkəmizdə qeyri-neft sektorunun prioritet istiqamətlərindən sayılır. Milli iqtisadiyyatın inkişafı üzrə Strateji Yol Xəritəsində də bu istiqamətə xüsusi diqqət yetirilib. Təsadüfi deyil ki, 2016-cı ildə ölkəmizə 2 milyon 248 min turist səfər edib. Bu ilin 9 ayında isə Azərbaycana gələn turistlərin sayı təxminən 1 milyon 900 min nəfərə yaxındır.



Ölkəmizə gələn turistlər paytaxt Bakı ilə yanaşı, bölgələrimizə də səfər edirlər. Bu isə son illər regionlarda turizm sektorunun sürətlə inkişaf etməsindən qaynaqlanır. Azərbaycanın turizm mərkəzlərindən hesab olunan Şəkidə də turizmin inkişafı yönümündə təşkilati və əməli tədbirlər həyata keçirilir. Bildiyimiz kimi, Şəki özünəməxsus təbiəti və spesifik xüsusiyyətləri ilə fərqlənən nadir bir bölgədir. Buranın zəngin təbiəti, çoxəsrlik tarixi, mədəniyyət və arxeoloji abidələri, zərif ipəyi, yerli əhalinin incə yumoru və əlbəttə ki, zəngin mətbəx mədəniyyəti var.

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Şəki şəhərində son illər turizm sahəsinin inkişafı ilə bağlı mühüm layihələr həyata keçirilib. Aşağı Karvansara kompleksi, Şəki xanlarının evi bərpa olunub, müasir tələblərə cavab verən "Şəki Saray", "Sheki Palace" və "Yaffle İnn" mehmanxanaları, Şəki park istirahət mərkəzi, "Marxal" Müalicə-İstirahət Kompleksi inşa edilib, yeni ticarət və xidmət obyektləri istifadəyə verilib. Şəhərdə mütəmadi olaraq keçirilən beynəlxalq "İpək Yolu" musiqi festivalı, eləcə də şirniyyat, teatr, zərb alətləri festivalları xalqımızın qeyri-maddi mədəni irsinin qorunub saxlanılmasında və təbliğində, eyni zamanda, şəhərin turizm potensialının genişləndirilməsində və regionun beynəlxalq səviyyədə tanınmasında mühüm rol oynayır. Həyata keçirilən tədbirlər nəticəsində Şəki turistlər üçün daha cəlbedici məkana çevrilib. Son 5 ildə rayonu ziyarət edənlərin sayı 7 dəfədən çox artaraq 150 min nəfərə çatıb.

Məlum olduğu kimi, Prezident İlham Əliyev cari il sentyabrın 27-də "Şəki rayonunun Kiş kəndində abadlıq-quruculuq işləri aparılmasına dair tədbirlər haqqında" sərəncam imzalayıb. "Kiş Alban məbədi"nə aparan dairəvi avtomobil yolunun tikintisini və yol boyu ərazinin abadlaşdırılmasını nəzərdə tutan sərəncam Şəki rayonunun mövcud turizm potensialından istifadə imkanlarının genişləndirilməsi məqsədini daşıyır.

Mədəniyyət və Turizm Nazirliyinin Şəki Regional Mədəniyyət və Turizm İdarəsinin rəisi Mirvari Zeynalova bildirdi ki, ölkəmizə turist axınında müşahidə olunan dinamika ürəkaçandır: "Təbii ki, bu kəmiyyət artımı normal turizm infrastrukturunun yaradılmasını tələb edir. Bu məqsədlə son illər Şəkidə çoxlu sayda mehmanxanalar, kottejlər, turizm istirahət mərkəzləri və digər sosial obyektlər inşa olunub".

Turizm infrastrukturunda əsas sahələrdən biri də yollardır. Şəkidə də turizm obyektlərinə, xüsusilə də beynəlxalq turizm marşrutuna daxil olan tarix və mədəniyyət abidələrinə aparan yollar vaxtaşırı təmir olunur. Bundan əlavə, şəhərin müvafiq küçə, meydan və xiyabanlarında turizm obyektlərinin ünvanı və onlar haqqında qeyd edilən xüsusi lövhələr vurulur. Cari ilin yaz-yay turizm mövsümündə bir sıra yeniliklər də tətbiq edilib. Məsələn, şəhərin Yuxarıbaş Tarix Memarlıq Qoruğu ərazisində atla gəzintilər və bədii özfəaliyyət kollektivlərinin konsertləri təşkil olunub.

Şəkidə turizmin yeni sahələrinin yaradılması istiqamətində də genişmiqyaslı işlər aparılır. M.Zeynalova qeyd etdi ki, rayonun dağətəyi kəndlərində, xüsusilə Kiş, Baş Küngüt və Bideyiz kəndlərində "ailə turizmi"nin ilk cücərtiləri görünməkdədir. Həmin yaşayış məntəqələrində 30-a yaxın ev turistləri qəbul etməyə hazırdır. Atılan ilkin addımlar onu deməyə əsas verir ki, ən yaxın gələcəkdə kəndlərdə "ailə turizmi" üzrə ən azı 1000 nəfərə yaxın turistin normal istirahətinə imkan yaranacaq. Perspektivdə həmçinin at və piyada gəzinti marşrutları da planlaşdırılır. Bu marşrutlar əsasən 3 istiqamət üzrə olacaq. Bunlardan birincisi Kiş - "Gələrsən-görərsən" qalası, ikincisi Orta Zəyzid-Baş Zəyzid-Quzu yolu-Xan yaylağı-Marxal, üçüncüsü isə Oravan-Bal Kəldək-Keşnəzər-Gavur qaladır. Rayonun Salınçaq, Çorqat, Aydınbulaq, Oravan və Baş Kəldək ərazilərində isə ov turizmi ilə bağlı layihə hazırlanır.

Məlumat üçün qeyd edək ki, ölkəmizdə, o cümlədən Şəkidə turizmin rəsmi statistikası 2006-cı ildən etibarən aparılır. Əgər 2006-cı ildə Şəkiyə gələn turistlərin ümumi sayı 2 min 800 nəfər olmuşdursa, 2017-ci ilin 9 ayı ərzində bu rəqəm 150 min nəfərə çatıb. Yaxın illərdə Şəkiyə gələn qonaqların 200 min nəfərə çatacağına heç bir şübhə yoxdur.

***Əli SƏLİMOV, "Azərbaycan"***



# Bütün qüvvələr pambıq yığımına səfərbər olunub

Prezident İlham Əliyevin qeyri-neft sektorunun aparıcı sahələrindən olan kənd təsərrüfatının, o cümlədən pambıqçılığın inkişafına verdiyi önəm, dövlətin bu sahəyə göstərdiyi diqqət və qayğı ölkənin ən iri pambıqçılıq rayonlarından olan Bərdənin əhalisi tərəfindən böyük minnətdarlıq hissi ilə qarşılanıb.

Ötən il bu sahədə əsaslı dönüşə nail olunmuş, 3003 hektar sahənin hər hektarından 23 sentnerdən çox məhsul əldə edilmişdir ki, bu da orta respublika göstəricisindən yüksəkdir. Bunu Bərdənin pambıqçılıqda keçmiş şöhrətinin qaytarılması istiqamətində uğurlu başlanğıc hesab etmək olar.

Cari ildə pambıqçılıqda daha yüksək nəticələrə nail olunacağı gözlənilir. Belə ki, bu il kənd əməkçiləri 8518 hektar sahədə pambıq əkib-becərmişlər. Hədəf isə 20 min ton pambıq istehsal etmək, eyni zamanda, hektarın orta məhsuldarlığına görə respublikanın pambıqçılıq rayonları sırasında birinci yerdə dayanmaqdır. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü təşkilat-təsərrüfat tədbirləri öz gözəl bəhrəsini verir. Artıq becərmə işlərini uğurla başa çatdıran rayonun əkinçiləri tarlalarda yetişdirilmiş bol məhsulun toplanışına mütəşəkkilliklə başlamışlar. Bütün becərmə işləri təcrübəli mütəxəssislərin nəzarəti altında vaxtlı-vaxtında və aqrotexniki tələblərə uyğun şəkildə həyata keçirildiyindən tarlalar barlı-bəhrəlidir. İndi başlıca vəzifə gərgin zəhmət hesabına hasilə gələn pambıq məhsulunu qısa müddətdə və itkisiz toplayıb tədarük məntəqələrinə təhvil verməkdir. Bütün qüvvələr bu işə səfərbər olunmuşdur. Əsas vəzifə yetişdirilmiş məhsulu oktyabr ayının sonunadək tamamilə toplayıb tədarük etməkdir.

İşin gedişində qarşıya çıxan müəyyən problemlərin vaxtında aradan qaldırılması üçün rayon qərargahı yaradılmışdır. Qərargahın sədri, rayon icra hakimiyyəti başçısının müavini İlham Məmmədov görülən işlər və qarşıda duran vəzifələrlə bağlı bizimlə söhbətində dedi:

- Pambıq yığımına ilk günlərdən yüksək mütəşəkkilliklə başlanmışdır və uğurla davam edir. Məhsulun ən azı 70-80 faizi texnikanın gücü ilə toplanacaqdır. Bunun üçün lazımi qədər pambıqyığan maşın var. Lazım gələrsə, kənardan da pambıqyığan texnika cəlb olunacaq. Bununla yanaşı, yığım zamanı əl əməyindən də istifadə olunur.

Məhsulun qəbulunda da elə bir problem yoxdur. Zavodyanı qəbul məntəqələrində bütün hazırlıq işləri vaxtında başa çatdırılmış, əlavə qəbul məntəqələri də yaradılmışdır. Məhsulu maşınla yığılacaq sahələr də öncədən müəyyənləşdirilərək optimal müddətdə defolyasiya olunmuşdur.

Görülən işlər, həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, bərdəlilər gərgin zəhmət hesabına yetişdirilmiş məhsulu vaxtında və itkisiz toplayacaq, 2017-ci il rayonun pambıqçılıqda keçmiş şöhrətinin qaytarılması istiqamətində həlledici il olacaq.

***Elbrus MƏMMƏDOV, Bərdə rayonu***

# Zaqatalada tütünçülüklə məşğul olan fermerlərin sayı artır

Kənd təsərrüfatının ənənəvi sahələri arasında tütünçülük xüsusi olaraq seçilir. Bu məhsulun cəlbediciliyini artıran ilkin səbəb onun ixracyönümlü, digəri isə əməktutumlu olmasıdır. Yeri gəlmişkən qeyd edək ki, mövsüm ərzində tütünçü təxminən 8 ay bu işlə məşğul olur.

Hazırda respublikamızın aqrar sektorunda tütünçülük prioritet sahələrdən biri hesab olunur. Xüsusən də şimal-qərb bölgəsində bu sahə daha intensiv inkişaf edir. Zaqatala rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə deyir ki, sovetlər dönəmində də bölgə əhalisi tütünçülüklə geniş şəkildə məşğul olub. Tütün insanların başlıca dolanışıq yeri idi. Sonradan obyektiv və subyektiv amillərin təsiri nəticəsində bu sahədə müəyyən tənəzzül yaransa da, artıq iki ildir ki, tütünçülük yenidən dirçəlməyə başlayıb. M.Əhmədzadə deyir ki, Zaqatalanın bir ildə 13 min 500 ton quru tütün təhvil verən zamanları olub. Ən baha qiymətə satılan brend siqaretlər də məhz Zaqatalada əkilən ətirli tütün növlərindən hazırlanıb. Bu gün həmin sortların yenidən əkilməsi fermerlər üçün stimuldur.

"Azərtütün" MMC-nin tütün qəbulu məntəqəsinin və illik emal gücü 3 min ton olan Tütün Emalı Zavodunun fəaliyyətə başlaması da rayonda tütün istehsalını xeyli artırmağa imkan yaradıb. Hazırda Zaqatalada 60-a yaxın tütünqurutma kamerası var.

Bu gün Zaqatala rayonunda əsasən ətirli və qiymətli tütün sortları olan "Berley" və "Virciniya"nın yetişdirilməsinə üstünlük verilir. Həmin məqsədlə ötən il 601,5 hektar sahədə tütün əkilib və 1200 nəfər mövsümi işə cəlb edilib. Cari il isə rayon üzrə 743 hektar sahədə müxtəlif tütün sortları əkilib. Ondan 637 hektarı "Vircinya", qalanı yerli sortlardır. Yerli sortlar fermerlərin fərdi qurutmaxanalarında qurudularaq müxtəlif tədarükçü şirkətlərə satılır. "Vircinya" növlü tütün isə yaş halda "Azərtütün" MMC-nin qəbul məntəqələrinə verilir.

Rayon üzrə bu günə kimi 500 tondan çox quru tütün təhvil verilib. Bunun da yaş hala çevrilməsi 4 min ton tütün deməkdir. Fermerlər arasında 70, 80, hətta 100 hektardan çox tütün əkənlər var. Bu da rayon sakinlərinin məşğulluğunun təmin olunmasında tütünçülüyün əhəmiyyətini bir daha qabardır. Fermer təsərrüfatlarında çalışan işçilər danışıqdan asılı olaraq əməkhaqlarını ya gündəlik, yaxud həftədə bir dəfə alırlar. Söz düşmüşkən, mövsümi işlərə cəlb olunan insanların sayı rayon üzrə təxminən 2500 nəfərdir.

Zaqatala rayonunun Yuxarı Tala kənd sakini fermer İbrahim Qalayevlə Paşan kəndindəki tütün sahəsində görüşdük. 11 hektar tütün sahəsi var. İndiyədək Zaqatala Tütün Emalı Zavoduna yaş halda 20 tondan çox tütün təhvil verib. 45 ton yaşıl tütünü isə qurutmaxanada qurudur. Əlavə 100 ton yaşıl tütün dəriləcəyi gözlənilir. Əkin əsasən Makov, Çaytala və Paşan kəndlərinin ərazisində aparılıb.

Biz ərazidə olarkən Sabirabad rayonundan olan 3 gəncin təsərrüfatda çalışmasının şahidi olduq. Fermerin sözlərinə görə, onlar özləri onu axtarıb tapıblar: "Onların qalmaq yeri və yemək təminatlarını ödəyirik. Əlavə olaraq gündəlik gördükləri iş üçün maaşlarını ödəyirik. Ümumilikdə mövsüm başlayandan işçilərimizin sayı 15-20 nəfər arasında dəyişir".

İ.Qalayev deyir ki, indiyəcən maddi baxımdan çətinlikləri olmayıb. Ümumi işlər üçün "Azərtütün" MMC-dən 14 min 560 manat kredit götürülüb. Əvəzində 60-65 ton tütün təhvil verilməlidir. Sahələrdəki bol məhsul kreditin ödənişi ilə yanaşı, həm də əlavə gəlirdən xəbər verir. Fermer tütünün sahələrdən daşınması üçün MMC-nin əvəzsiz olaraq yük maşını ayırmasını da qeyd etdi.

Zaqatala Tütün Emalı Zavodunun direktoru Mübariz Qədimov bu il tütün əkini sahələrinin genişləndirilməsini müsbət hal kimi dəyərləndirdi. Bununla belə, istehsalın artması səbəbindən qurutma kameralarının çatışmazlığını da qeyd etdi. Vəziyyətdən çıxış yolu kimi fermerlərdən tütünü iynəyə düzüb qurutduqdan sonra təhvil vermələri xahiş olunub. Ümumilikdə, Zaqatalada 60 fermerlə müqavilə bağlanıb. Balakən, Zaqatala, Qax və Şəkidə 2 min hektar sahədən 3 min ton "Vircinya" sortlu tütünün qəbulu nəzərdə tutulur.

***Ə.SƏLİMOV, "Azərbaycan"***

# Samuxlular ili yüksək göstəricilərlə yola salmaq əzmindədirlər

Regionların inkişafı ilə bağlı qəbul edilmiş və uğurla həyata keçirilən dövlət proqramları, habelə bölgələrdə sosial-iqtisadi inkişafı daha da sürətləndirmək üçün reallaşdırılan əlavə tədbirlər qısa vaxt ərzində ölkəmizdə qeyri-neft sektorunun davamlı inkişafını, sosial infrastruktur təminatının yaxşılaşdırılmasını, sahibkarlıq mühitinin sağlamlaşdırılmasını, investisiya qoyuluşunun artımını təmin etmişdir ki, bununla da ölkə iqtisadiyyatında əsaslı şəkildə dönüş yaranmış, əhalinin həyat səviyyəsi xeyli yüksəlmişdir.







Vaxtilə işsiz qalmış region əhalisi torpağa üz tutaraq dolanışığını zəhmətdə, əkib-becərməkdə tapmışdır. İndi kəndli bilir ki, ona dövlət dəstəyi var. Fermer çalışır ki, həm dolanışığını təmin etsin, həm də ərzaq bolluğu yaratsın. Belə rayonlardan biri də Samuxdur. Bu gün rayonun bütün kənd və qəsəbələrində böyük işgüzarlıq hökm sürür. Havaların yağmurlu keçməsinə baxmayaraq, hamı alın təri ilə yetişdirdiyi məhsulu son kiloqramınadək toplamaq üçün əlindən gələni əsirgəmir.

Rayonda yaradılmış "AQRO DAİRY" MMC, "Boz dağ" heyvandarlıq kompleksi, "Ulduz 2011" MMC, "Qarabağ Region MKT" MMC, "Region Aqro" MMC kimi iri fermer təsərrüfatları keçən il olduğu kimi, bu il də uğurlu göstəricilərə nail olur. Təkcə 61 hektar ərazidə yerləşən 200-dən artıq istixanadan MDB respublikalarına 5 min tondan artıq faraş tərəvəz, o cümlədən pomidor, xiyar göndərilmişdir. Şəmkirçay su anbarından çəkilmiş 60,5 kilometr uzunluğunda magistral kanalların istifadəyə verilməsi isə əkin dövriyyəsinə daxil edilmiş 8 min hektar əraziyə həyat vermişdir.

İqtisadiyyatının əsasını aqrar sektor təşkil edən rayonda yüksək məhsuldarlığa nail olunur. Cari il 8306 hektar sahədə taxıl əkilmişdir ki, ondan da 5691 hektarı buğda, 2615 hektarı dən üçün arpa olmuşdur. Ümumilikdə zəmilərdən 22873 ton taxıl götürülmüşdür ki, bu da hər hektardan 27,5 sentner məhsul deməkdir. Cari il rayonda həmçinin 1534 ton kartof, 10437 ton tərəvəz, 3475 ton bostan bitkiləri, 7608 ton günəbaxan, 47 ton paxlalı bitki, 1005 ton qarğıdalı, 10567 ton şəkər çuğunduru, 40 ton çəltik, 182 ton soya istehsal edilmişdir ki, bunlar da 2016-cı ilin göstəricilərindən çoxdur. Samuxda heyvandarlıq məhsulları istehsalında da uğurlu göstəricilərə nail olunur. Belə ki, bu ilin ötən dövrü ərzində 3319 ton diri çəkidə ət, 15920 ton süd, 5 milyon 278 min ədəd yumurta, 327 ton yun istehsal edilmişdir.

Kənd təsərrüfatı məhsullarının istehsalında yüksək nəticənin əldə olunmasında suvarmanın düzgün təşkili əsas rol oynayır. Qeyd edək ki, ölkə rəhbərinin sərəncamına uyğun olaraq bu il Samuxda 46 subartezian quyusu qazılmalıdır. Artıq onun 41-i istifadəyə verilmişdir. 5 quyunun qazılması isə davam edir. Eyni zamanda, torpaqların vaxtında suvarılması üçün yaz aylarında geniş hazırlıq işləri görülmüş, 278 nasos, 57 elektrik avadanlığı təmir edilmişdir. Bundan başqa, 268 min kubmetr kanal lildən təmizlənmiş, 42 min kubmetr ərazidə sahilbərkitmə işləri görülmüşdür.

Rayon ərazisində yaradılan aqroparkın suvarma suyu ilə təmin edilməsi məqsədilə hazırda Əhmədbəyli kəndi ərazisindən 12 kilometr uzunluğunda su xətti çəkilir. Xəttin 9,4 kilometri kompozit, 2,6 kilometri dəmir boru ilə çəkilir. Eyni zamanda, tutumu 100 min kubmetr olacaq su anbarının tikintisi üçün qazıntı işləri aparılır.

Əvvəlki illərdə olduğu kimi, bu il də rayonda abadlıq və quruculuq işləri davam edir. Xüsusilə, sosial infrastrukturun yenilənməsi istiqamətində xeyli işlər görülür. Artıq Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" layihəsinə uyğun olaraq rayon mərkəzində inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçası istifadəyə verilmişdir. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün isə Qarayeri və "İnstitut" qəsəbələrində, eləcə də Lək kəndində fərdi evlər tikilmişdir. Habelə Samux şəhərinin bir çox küçələrində yenidənqurma işləri aparılmış, o cümlədən piyada yollarına yeni üzlük daşlar düzülmüş, su keçidləri quraşdırılmışdır.

Yoldan söz düşmüşkən qeyd edək ki, bu il Samux-Füzuli-Lək-Əlibayramlı-Qarabağlar-Çobanabdallı-Samux, eləcə də Zazalı-"İmamzadə" avtomobil yolları əsaslı təmirdən sonra istifadəyə verilmişdir. 23 min nəfər əhalinin yaşadığı və 11 yaşayış məntəqəsini birləşdirən bu yolun uzunluğu 36 kilometrdir. "Azərbaycan kənd investisiya layihəsi" çərçivəsində isə Alabaşlı qəsəbəsində 9, Alıuşağı kəndində 12,5, Zazalı, Tatlı, Qiyaslı kəndlərində 12 kilometr daxili yollarda təmir-bərpa işləri aparılmışdır. Alabaşlı kəndində 2, Alıuşağı kəndində 2, Zazalı kəndində isə 3 dayanacaq quraşdırılmışdır.

Son illər Azərbaycanda alternativ enerji mənbələrindən istifadəyə xüsusi diqqət göstərilir. Bu layihələrdən biri də Samux Aqroenerji Yaşayış Kompleksidir. Hazırda kompleksdə birinci mərhələ üzrə işlər başa çatdırılmış, dövlət vəsaiti hesabına 3,8 MVt-lik günəş-bioenerji elektrik stansiyası, 1,1 MVt-lik istilik stansiyası, 10/0,4 kv-liq yarımstansiya quraşdırılmışdır. Aqroenerji Yaşayış Kompleksinin üçmərtəbəli inzibati binası, heyvandarlıq kompleksi inşa edilmiş, əkinçilik, bağçılıq, arıçılıq və istixana təsərrüfatları, maşın-mexanizm parkı yaradılmışdır. Yaxın gələcəkdə layihə çərçivəsində kompleksdə meyvəqurudan, soyuducu kameralar və səyyar rejimdə fəaliyyət göstərən günəş işıqlanması ilə təmin olunan turist çadırları, yol işıqlanma sistemləri istifadəyə veriləcək.

Rayonda əhalinin məşğulluğu sahəsində yaranmış problemin aradan qaldırılması üçün də tədbirlər həyata keçirilir. Təkcə cari ilin ötən dövründə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 24 layihə üzrə verilmiş 494 min manat güzəştli kredit hesabına 7405 yeni iş yeri açılmışdır ki, onun da 934-ü daimidir.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında "Açıq qapı" günü

Oktyabrın 21-də M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialında 2018-2019-cu tədris ilində bu ali məktəbə daxil olmaq üçün qəbulun şərtləri və qaydaları ilə tanışlıq məqsədilə "Açıq qapı" günü keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbiri açan professor, mexanika-riyaziyyat fakültəsinin ümumi topologiya və həndəsə kafedrasının müdiri Yuri Sadovniçi MDU-nun Bakı filialının "Açıq qapı" günündə iştirak edən professor-müəllim heyətini təqdim edib. Bildirib ki, M.V.Lomonosov adına MDU-nun Bakı filialı Azərbaycan Prezidentinin fərmanına müvafiq olaraq 2008-ci ildə yaradılıb. Əvvəlcə burada üç fakültə - tətbiqi riyaziyyat, kimya və filologiya fakültələri fəaliyyət göstərib, sonra psixologiya, iqtisad və fizika fakültələri açılıb. Təhsil bakalavr və magistr pillələrində aparılır. "M.V.Lomonosov adına MDU-nun Bakı filialının rektoru, professor Nərgiz Paşayevanın təşəbbüsü ilə 2012-ci ildə çox gözəl kampus inşa edilib və tələbələr üçün burada hər cür şərait yaradılıb. Kampusda çox zəngin kitabxana, müasir laboratoriyalar var, tələbələr geniş auditoriyalarda dərs keçirlər, burada yataqxanalar, idman meydançaları var. Fənləri əsasən MDU-nun professor və müəllimləri tədris edirlər. Tələbələr sonda Moskva məzunlarının aldıqları diplomdan heç nə ilə fərqlənməyən diploma sahib olurlar", - deyən Y.Sadovniçi filialda oxumağın çətin olduğunu, lakin bu çətinliyin tələbələrin gələcəyinə müsbət təsir göstərdiyini diqqətə çatdırıb. O deyib: "Praktika göstərir ki, məzunlarımızın işə düzəlmək problemi olmur. Onlar sonra bizə təşəkkür də edirlər".

Qəbul komissiyasının məsul katibi, fizika-riyaziyyat elmləri namizədi Denis İlyutko qəbul qaydaları haqqında ətraflı məlumat verib. Diqqətə çatdırıb ki, bu barədə bütün məlumat filialın http://msu.az/ saytında yerləşdirilib. Əgər məlumat kifayət etməzsə, http://www.msu.ru/ saytına, habelə filialın info@msu.az elektron ünvanına müraciət etmək olar. Bu il filial bakalavr və magistr proqramı üzrə qəbul keçirir. Filologiya fakültəsinin bazasında "Rus dili və ədəbiyyatı" və "Xarici filologiya" (fransız, ispan) bölmələri fəaliyyət göstərir. İqtisadiyyat fakültəsində iqtisadiyyat və menecment bölmələri var. Bütün fakültələrə plan 25 nəfər, filologiyada isə rus dili və ədəbiyyatı, fransız və ispan dili və ədəbiyyatı ixtisaslarına ayrı-ayrılıqda 10 nəfər olmaqla ümumilikdə 30 nəfərdir. Magistraturaya qəbul filologiya, riyaziyyat və kompüter elmləri, kimya, psixologiya və iqtisadiyyat fakültələri üzrə aparılır. Filialda qəbul imtahanları və təhsil rus dilindədir. Azərbaycan Respublikasında büdcə hesabına ali təhsil almış vətəndaşlar istisna edilməklə respublika vətəndaşları üçün təhsil pulsuzdur. Filiala qəbul imtahanına buraxılmaq üçün Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilən birinci (yaz) imtahanda iştirak etmək lazımdır. Bu zaman istənilən ixtisas qrupu üzrə 300 və ya daha çox bal toplamaq tələb olunur.

Denis İlyutko diqqətə çatdırıb ki, qəbul barədə ərizə elektron formada, elektron rəqəmsal imza (ERİ) - FİN kod əsasında verilə bilər. Ərizə forması http://msu.az/ saytında və ya DİM-in saytında http://dim.gov.az/ doldurula bilər. Ərizələri yalnız bir fakültəyə vermək olar. Lakin iqtisadiyyat və filologiya fakültələrində iki istiqamət olduğundan, hər iki istiqamətə vermək olar. Filiala qəbul MDU-nun yaratdığı qəbul komissiyasının keçirdiyi qəbul imtahanlarının nəticələrinə əsasən aparılır. Filialda təhsil rus dilindədir. Azərbaycan vətəndaşları, ali təhsili olanlar istisna edilməklə büdcə hesabına (ödənişsiz) təhsil alırlar. Əcnəbi vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər, habelə ali təhsilli Azərbaycan vətəndaşları üçün təhsil pulludur.

MDU-nun fizika fakültəsinin ümumi fizika kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru, fizika fakültəsinin tədris-elm işinin əlaqələndirilməsinə məsul Aleksandr Saletski diqqətə çatdırıb ki, fizika təcrübi elm olduğundan təhsil prosesində bu məsələyə böyük diqqət verilir. "Əgər MDU-nun Bakı filialı dünyanın ən yaxşı 100 universiteti sırasında yer alırsa, fizika fakültəsinə görə 30 universitet sırasına daxildir. Filialda olan ən müasir avadanlıq dünyanın bir çox ali məktəbində yoxdur", - deyə A.Saletski vurğulayıb.

Psixologiya fakültəsinin dekan müavini, psixologiya elmləri doktoru Valentina Barabanşikova müasir dövrdə həyatın müxtəlif sahələrində psixoloqa ehtiyac yarandığını vurğulayıb, bu baxımdan Bakıda da psixoloji mərkəzlərin açıldığını diqqətə çatdırıb. Bildirib ki, fakültənin tələbələri Moskvaya diplom praktikasına gedəcəklər.

Qeyd edək ki, psixologiya fakültəsində fundamental təhsilin əsasını ümumi psixologiya, şəxsiyyətin psixologiyası, psixologiyanın tarixi, eksperimental psixologiya, diferensial psixologiya, psixodiaqnostikanın əsasları, psixoloji praktikum kursları təşkil edir.

Kimya elmləri doktoru, üzvi kimya kafedrasının professoru, kimya fakültəsinin tədris-elm işinin əlaqələndirilməsinə məsul Sergey Karlov Azərbaycanın zəngin təbii ehtiyatlarının kimya sənayesinin, eləcə də kimya elminin inkişafını tələb etdiyini söyləyib. Vurğulayıb ki, ölkə rəhbərliyi müvafiq sahələrin inkişafı üçün hər cür şərait yaradıb. "Filialda 15-dən çox kimya laboratoriyası var. Bakalavr təhsilində tələbələr üç il ümumi fənləri, dördüncü il ixtisas fənlərini öyrənirlər. Əlbəttə ki, yaxşı oxuyanlar diplom işinə görə Moskvaya gedirlər. Məzunlarımızın bir hissəsi Azərbaycanda nüfuzlu şirkətlərdə, dövlət strukturlarında işləyir, bir hissəsi isə təkcə MDU-da aspiranturada deyil, həm də xaricdə təhsillərini davam edirlər", - deyə S.Karlov qeyd edib.

Tətbiqi riyaziyyat fakültəsindən Sergey Qaşkov riyaziyyatın elmlərin ən yaxşısı olduğunu maraqlı faktlarla diqqətə çatdırıb. "Pifaqor hesab edirdi ki, dünyanı ədədlər idarə edir", - deyən S.Qaşkov elm-texnikanın inkişafında riyazi hesablamaların, riyaziyyatın tətbiq edilməsinin əhəmiyyətindən söz açıb. O deyib: "İnsanların istifadə etdikləri smartfonlar çox asanlıqla bir neçə cihazı əvəz edir. Bu, həm kompüter, həm televizor, həm diktofon, həm telefondur. Səbəb bütün informasiyanın işlənməsində rəqəmsallığa keçilməsidir. Yaxud telefonun işi, funksiyalarının reallaşdırılması alqoritmə əsaslanır. Burada kodlaşdırma alqoritmindən istifadə edilir. Pul hesablaşmaları bank kartları ilə aparılır. Burada da rəqəm mikrosxemi var. Eləcə də şifrələmədə riyaziyyatdan istifadə edilir".

Filologiya elmləri doktoru, german və kelt filologiyası kafedrasının professoru Nataliya Qanina filologiya fakültəsinin filialın yaradıldığı vaxtdan fəaliyyət göstərdiyini diqqətə çatdırıb və bunun da söz sənətinə yüksək qiymət verən Azərbaycan üçün səciyyəvi olduğunu bildirib. Qeyd edib ki, tədris planına iki tədris təcrübəsi- folklor, dialektoloji, istehsalat (pedaqoji), habelə bir qayda olaraq Moskvada keçirilən diplomdan əvvəlki təcrübə daxildir. "Roman-german" filologiyası filiallar arasında məhz Bakıda yaradılıb. Növbəti tədris ilindən isə burada ispan və fransız ədəbiyyatı ixtisası tədris ediləcək. Vurğulayıb ki, həm rusistlərin, həm də xarici filologiyanı tədris edən professor-müəllim heyətinin böyük təcrübəsi var. Fakültənin beynəlxalq əlaqələri də genişdir. Bu sırada Oksford universitetini qeyd etmək yerinə düşər. Bu, filialın rektoru akademik Nərgiz Paşayevanın böyük zəhmətinin sayəsindədir.

İqtisad elmləri namizədi, iqtisad fakültəsinin tədris-elm işinin əlaqələndirilməsinə məsul Ceyhun Hüseynov diqqətə çatdırıb ki, fakültə filialda nisbətən yeni olsa da, məzunlarının iş problemi olmayıb. Onların bir qismi isə təhsillərini magistraturada davam etdirir. Ceyhun Hüseynov iqtisad elmlərinə tələbatdan danışıb, fakültədə fundamental tədris aparıldığını vurğulayıb, bakalavr və magistratura təhsili haqqında ətraflı məlumat verib.

Çıxış edənlər tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıblar.

Sonra tədbir iştirakçılarına xüsusi avtobuslarda Xocasəndə MDU-nun Bakı filialının kampusuna getmək imkanı yaradılıb.

Beləliklə, tədbir iştirakçıları bu ali təhsil müəssisəsinin filologiya, tətbiqi riyaziyyat, kimya, psixologiya, iqtisadiyyat və fizika fakültələrində bakalavr və magistr hazırlığı ilə bağlı hərtərəfli məlumat əldə ediblər.

# Ermənistanın təxribatı nəticəsində şəhid olan hərbi qulluqçumuz torpağa tapşırılıb



Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin şəhid olan əsgəri Cabbar Firuddin oğlu Zeynalovun nəşi bu gün Saatlı rayonunun Heydərabad kəndinə gətirilərək dəfn edilib.

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin yaxınları, xidmət etdiyi hərbi hissənin əsgər və zabit heyəti, Saatlı Rayon İcra Hakimiyyətinin rəhbərliyi, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları iştirak ediblər. Tabut üzərinə örtülən Azərbaycan bayrağı şəhidin atasına təqdim olunub. Yaylım atəşindən sonra torpağa tapşırılan şəhid Cabbar Zeynalovun məzarı üzərinə əklil və qərənfillər qoyulub.

Qeyd edək ki, Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu, 1999-cu il təvəllüdlü Cabbar Firuddin oğlu Zeynalov oktyabrın 22-də şəhid olub.

# Texniki əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb

Azərbaycan - Körfəz Ərəb Dövlətləri Əməkdaşlıq Şurası üzv ölkələrinin biznes forumu çərçivəsində "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxslə (ASİ) Körfəz Ərəb Dövlətləri Əməkdaşlıq Şurasının (KƏŞ) Standartlaşdırma Təşkilatı arasında texniki əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Sənədi ASİ-nin Baş direktoru vəzifəsini icra edən Namiq Tağıyev və KƏŞ-in Standartlaşdırma Təşkilatının Baş katibi Nəbil Molla imzalayıb.

Anlaşma Memorandumu tərəflər arasında standartlaşdırma sahəsində əməkdaşlığın təşviqi, normativ sənədlər, standartlar kataloqu, fəaliyyət planları və kadr mübadiləsi, uyğunluq sertifikatlarının qarşılıqlı tanınması, birgə seminar, treninq və ekspert səfərlərinin təşkili və digər mühüm qarşılıqlı maraq doğuran sahələri əhatə edir.

*"Azərbaycan"*

# Diabetlə mübarizədə iştirak edənlər mükafatlandırılacaqlar

Əhali arasında şəkərli diabetə qarşı mübarizədə maarifləndirməni artırmaq məqsədilə Heydər Əliyev Fondu və "Novo Nordisk" şirkəti birgə layihə keçirir.



AZƏRTAC xəbər verir ki, layihə çərçivəsində Azərbaycanda ilk dəfə şəkərli diabetlə mübarizədə fərqlənənlər üçün "Azerbaijan Changing Diabetes™ Awards" mükafatı təsis edilib.

Dörd nominasiya üzrə təqdim olunacaq mükafatın qalibləri müvafiq meyarlar üzrə müəyyənləşdiriləcəklər.

Birinci nominasiya üzrə mükafat ilin ən yaxşı gənc tədqiqatçısına təqdim olunacaq. Bu nominasiyada şəkərli diabet üzrə elmi araşdırma və məqalə müəllifləri, elmi konfrans və seminarların fəal iştirakçısı və Beynəlxalq Diabet Federasiyasının tədbirlərində iştirak edən gənc tədqiqatçılara üstünlük veriləcək.

İkinci mükafat ilin ən yaxşı həkimi nominasiyasında şəkərli diabetin müalicəsində innovativ metodlardan istifadə edən, elmi konfrans və seminarlarda fəal iştirak etmiş, müasir protokollara əsasən pasiyentəri müalicənin erkən mərhələsində insulinə keçirtməyə təşəbbüs göstərən və HbA1c göstəricisi ciddi nəzarət altında saxlanılan pasiyentləri olan tibb işçilərinə təqdim olunacaq.

Üçüncü nominasiya adı "İlin ən yaxşı jurnalisti"dir. Həmin nominasiya üzrə şəkərli diabet ilə mübarizəyə dair, o cümlədən bu xəstəlik haqqında maarifləndirici yazı müəllifləri, şəkərli diabetlə bağlı tədbirlərdə iştirak edən jurnalistlər müraciət edə bilərlər. Şəkərli diabetdən əziyyət çəkənlərin həyat tərzinin yaxşılaşdırılması, müalicə xərcləri və onların optimallaşdırılmasına həsr olunmuş məqalə müəlliflərinə üstünlük veriləcək.

Dördüncü mükafat ilin ən yaxşı təlimçisi (Best educator of the year) nominasiyası üzrə şəkərli diabeti olanlara bu problem haqqında keyfiyyətli təlim keçən şəxslərə təqdim olunacaq.

Namizədlər müraciətlərini özləri haqqında ətraflı məlumat, tərcümeyi-hal və nominasiyaya uyğun sənədlərini əlavə edərək (acda2017@novonordisk.com) email ünvanına göndərə bilərlər.

Müraciətlər oktyabrın 23-dən noyabrın 1-dək qəbul edilir.

Müraciətlər xüsusi ekspertlərdən ibarət komitə üzvləri tərəfindən təhlil ediləcək.

"Azerbaijan Changing Diabetes™ Awards" mükafatı noyabrda keçiriləcək mərasimdə təqdim olunacaq.

Hüseyn Cavid - 135

# Həmişə müasir Cavid

**"Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir".**

**Heydər ƏLİYEV**



"Gəlimli, gedimli dünya, son ucu ölümlü dünya" nə qədər qoca olsa da, neçə əsrləri, qərinələri, illəri yola salsa da, onun qoynunda yaranan ölməz mədəniyyət abidələrinin, sənət əsərlərinin yaşı bir o qədər azdır. Dünyaya meydan oxuyan cahangirlər, hökmdarlar, şahlar, krallar gəlib gedib, onlar ölkələr alıb, qanlar töküb, amma çoxunun tarixdə izi-tozu da qalmayıb. Lakin yaradılan sənət əsərləri əsrlər keçdikcə xalqın mənəvi sərvəti kimi yaşayıb. Xalq təkcə təbii sərvətləri ilə tanınmır, həm də nəsillərdən nəsillərə yadigar qoyduğu mədəniyyət abidələri, folklor nümunələri, incəsənət əsərləri və əlbəttə, bədii söz inciləri ilə şöhrət qazanır. Bu əsərləri yaradan insanlar isə xalqın mənəvi yaddaşında silinməz izlər buraxan böyük sənətkarlardır: Nizami, Xaqani, Əbubəkr Əcəmi, Kəmaləddin Behzad, Nəsimi, Xətai, Axundov, Vaqif, Sabir, Mirzə Cəlil, Hüseyn Cavid, Üzeyir Hacıbəyov, Qara Qarayev, Səməd Vurğun, Səttar Bəhlulzadə… onlar Azərbaycan mədəniyyətini bütün dünyada tanıtmışlar.

Bu sırada, əlbəttə, Hüseyn Cavidin xüsusi yeri var.

Hüseyn Cavid böyük şair və dramaturqdur, Azərbaycan ədəbiyyatının XX əsrdə yetirdiyi nadir söz ustalarından biridir, romantizm ədəbi məktəbinin və cərəyanının poeziyamızda və dramaturgiyamızda banilərindən biridir, milli teatrımızın inkişafında böyük rol oynayan incəsənət xadimidir - "Cavid teatrı"nın yaradıcısıdır və nəhayət, əsərləri ilə neçə nəslin mənəvi tərbiyəsini formalaşdıran ən qüdrətli sənətkar-pedaqoqdur.

Cavid filosof şairdir. Onun xüsusi bir fəlsəfi əsəri olmasa da, bədii əsərlərində irəli sürdüyü fikirlər fəlsəfi məzmunu və mündəricəsi ilə seçilir. Həyat-ölüm, varlıq-yoxluq, xeyir-şər, humanizm, gözəllik kimi əbədi problemlər Cavid sənətində öz bədii-estetik həllini tapmış və Cavid fəlsəfəsi bu qədim elmi öz bədii mündəricəsi ilə bir daha zənginləşdirmişdir.

Lakin bu böyük sənətkarın taleyi, ömür yolu məhrumiyyətlərdən keçmiş, əzablara, maddi, fiziki və mənəvi ağrılara tuş gəlmişdir. Tale onu XX əsrin ən qovğalı, mürəkkəb və ziddiyyətli bir dövrü ilə mübarizəyə məhkum etmişdi. Keçən əsrin iyirminci-otuzuncu illərində Cavid həm mütəfəkkir bir sənətkar kimi tanınmış, həm də iftiralar, böhtanlar selinə qərq olmuşdu. Əlbəttə, dövrü, zəmanəni də qınamaq olmaz, həmin dövrün, zəmanənin ipi, ilgəyi "yeni bir dünya" yaradan bolşevik-fanatiklərin, insanları sinfi-siyasi mövqelərinə görə qiymətləndirən kommunist-ideoloqların əlindəydi. Cavid yaradıcılığa inqilabdan əvvəl başlamışdı və həmin ideoloqların nəzərincə, o, keçmişin, burjua-mülkədar quruluşunun adamıydı. Ona görə də Cavidə münasibət, həm də keçmişə münasibət demək idi. Halbuki Cavid keçmişdə - çar dövründə və sonra müsavat hakimiyyəti illərində hakim sinfin mənəvi boyunduruğuna düşməmişdi. O, azad sənətkar idi, öz əsərlərində azadlığı, istiqlalı, xoşbəxt gələcəyi tərənnüm edirdi, bütün türk xalqlarının mənəvi birliyi onun həyat və sənət idealı idi. Azərbaycanda Şura inqilabı qalib gələndə isə Cavid bir çoxları kimi, öz vətənindən üz döndərmədi, xalqının mənəvi-mədəni tərəqqisi yolunda çalışdı. Təsəvvür edin, iyirminci-otuzuncu illərdə ən çox dəbdə olan, əsərləri ən çox səhnədə oynanılan ədib Cavid olmuşdur. Amma eyni zamanda ən çox da mübahisə və müzakirə hədəfinə çevrilən, ən çox böhtana məruz qalan da Cavid idi.

Otuz yeddinci ilin sərt repressiya tufanından Cavid də xilas ola bilmədi.

Cavidin adını ədəbiyyat dərsliklərindən sildilər, əsərlərini teatrların repertuarından çıxardılar, ailəsini də yaşadığı mənzildən bayıra atdılar. Amma Cavidi ürəklərdən silə bilmədilər. Dövr, zaman Cavidin əleyhinə işləyirdi, amma Cavidin ürəklərə, beyinlərə şölələndirdiyi fikirlər, hisslər, duyğular yaddaşlarda gizlin bir xəzinə kimi yaşayırdı.

Zaman gəldi. Qırx beş illik möhnətdən sonra Cavid yenidən vətənə döndü. Cavidin qayıdışı onun mənəvi ideallarının, gözəllik və sevgi fəlsəfəsinin, əbədi səadət axtarışlarının, insanları xoşbəxt və məsud görmək arzularının əbədi təsdiqinə çevrildi. Azərbaycan xalqının böyük oğlu, XX əsrin ən müdrik siyasət adamı, ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Cavidin nəşi uzaq Sibirdən onun doğulduğu Naxçıvan torpağına gətirildi, orada dəfn olundu. İndi Cavid üçün heç bir yasaq, qadağa yoxdur, əsərləri dönə-dönə nəşr edilir, ədəbiyyat tarixi dərsliklərində öz layiqli yerini tutur, tamaşaları yenə də səhnələrin bəzəyinə çevrilir. Çünki ulu öndər Heydər Əliyevin dediyincə: "Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. H.Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır.

H.Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırışdır".

"Üç böyük tarixi mərhələnin (rus, türk, İran inqilabları, Oktyabr və Aprel çevrilişləri, sovetsayağı sosializm dövrləri) narahat sənətkarı olan Cavid öz əbədi tanrı, harmoniya və həqiqət axtarışları ilə birlikdə bizim epoxamıza da daxil olur və azad, müstəqil, suveren milli şüuru bu gün yenidən düşündürməkdə davam edir". Bu sitat görkəmli tənqidçi Yaşar Qarayevin "Romantizmin Cavid yaddaşı" məqaləsindən götürülüb və fikrimizcə, Cavidin dərki mərhələsini ümumi şəkildə səciyyələndirir. Cavidə yenidən qayıtmaq heç də onun əsərlərinin yeni nəşrlərinin tam və dolğun şəkildə oxuculara çatdırılması, yaxud əsərlərinin teatrlarda yeni quruluşda tamaşaya qoyulması kimi anlaşılmamalıdır. Cavidə yenidən qayıdış onun əsərlərinin bədii-estetik dəyərinin yeni meyarlarla qiymətləndirilməsi deməkdir. Cavidə qayıdış onun çoxqatlı bədii dühasının təkcə milli səviyyədə deyil, ümumdünya səviyyəsində, dünya ədəbiyyatı və mədəniyyətinin bugünkü səviyyəsində dərki deməkdir.

Zəngin və qiymətli ədəbi-bədii fəaliyyəti ilə söz yaddaşımızın zirvəsinə ucalmış Hüseyn Cavidin 135 illik yubileyi münasibətilə şairin bənzərsiz yaradıcılığı və həyat yolunu bir daha vərəqləyən, xatırlayan və əziz tutan tədbirlər davam edir. AMEA Hüseyn Cavidin Ev Muzeyinin bu sahədə gördüyü işlər arasında beynəlxalq elmi konfransın, xarici ölkələrdə anım günlərinin keçirilməsi, şairin əsərlərinin xarici dillərə tərcümə olunması kimi bir çox məsələlər yer alır. Yubiley çərçivəsində Azərbaycanın Fransadakı səfirliyinin Mədəniyyət xidməti şöbəsində tədbir təşkil olunub və muzeyin yeni nəşrləri, o cümlədən Hüseyn Cavidin fransız, alman, çex, yunan və s. dillərə tərcümə olunmuş əsərləri səfirliyin kitabxanasına hədiyyə edilib. Yubileylə bağlı tədbirlərin davamı olaraq oktyabrın 23-də AMEA Hüseyn Cavidin Ev Muzeyi ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Hüseyn Cavid və müasir gənclik" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Tədbirlər silsiləsində oktyabrın 27-də Azərbaycanın Bolqarıstandakı səfirliyi, AMEA Hüseyn Cavidin Ev Muzeyi və Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin birgə layihəsi əsasında Bolqarıstanda genişmiqyaslı tədbir keçiriləcək. Bu tədbirdə bolqar dilində tərcümə və nəşr olunan "Şeyda" və "Maral" əsərlərinin təqdimat mərasimi təşkil olunacaq, kitablar bolqar oxucularına hədiyyə ediləcək.

Cavid yaradıcılığının tədqiqi məsələsi hələ davam edir və güman edirik ki, qarşıda bizi Cavid haqqında yazılacaq ən sanballı əsərlər gözləyir.

***Gülbəniz BABAXANLI,***
***AMEA Hüseyn Cavidin Ev Muzeyinin direktoru, əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru***

# Pambıq yığımı davam edir

Oktyabrın 23-dək pambıq qəbulu məntəqələrinə ölkə üzrə 119 min 740,27 ton məhsul təhvil verilib. Oktyabrın 21-22-də 8565,64 ton pambıq tədarük olunub.

Qeyd edək ki, ölkə üzrə cari ildə ötən illə müqayisədə 2,7 dəfə çox - 136 min 413,2 hektar çiyid səpilib. Bu il ən çox pambıq Saatlı, İmişli, Sabirabad, Biləsuvar və Neftçalada əkilib.

Məhsul yığımında Saatlı pambıqçıları öndədirlər. Onlar oktyabrın 23-dək 18 min 419,40 ton məhsul təhvil veriblər.

Xatırladaq ki, 2016-cı ildə ümumilikdə 88 min 596 ton pambıq tədarük olunmuşdu.

AZƏRTAC pambıq tədarükünə dair oktyabrın 23-nə olan operativ məlumatı təqdim edir.

**23.10.2017-ci il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | Pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | |
|---|---|---|---|
| | | Cəmi | o cümlədən 21-22.10.2017-ci il tarixlərində |
| **Respublika üzrə cəmi** | **136413,2** | **119740,27** | **8565,64** |
| Ağcabədi rayonu | 9550,0 | 10902,71 | 811,41 |
| Ağdam rayonu | 3005,0 | 3709,79 | 346,27 |
| Ağdaş rayonu | 3000,0 | 2059,20 | 136,50 |
| Ağsu rayonu | 2500,8 | 1498,70 | 96,40 |
| Beyləqan rayonu | 8550,0 | 9214,87 | 563,17 |
| Bərdə rayonu | 8518,5 | 10909,39 | 1023,70 |
| Biləsuvar rayonu | 11351,8 | 13769,46 | 1095,64 |
| Cəlilabad rayonu | 500,0 | 596,10 | 88,10 |
| Füzuli rayonu | 2050,0 | 1121,10 | 86,80 |
| Goranboy rayonu | 5000,0 | 3318,30 | 316,70 |
| Hacıqabul rayonu | 1203,9 | 376,72 | 24,75 |
| İmişli rayonu | 15641,5 | 7768,95 | 580,46 |
| Kürdəmir rayonu | 4027,0 | 2897,58 | 162,44 |
| Neftçala rayonu | 11111,0 | 5757,77 | 417,53 |
| Saatlı rayonu | 17220,0 | 18419,40 | 1098,50 |
| Sabirabad rayonu | 15055,0 | 11441,34 | 711,04 |
| Salyan rayonu | 7052,4 | 5324,80 | 344,10 |
| Samux rayonu | 53,0 | 13,38 | 0,59 |
| Tərtər rayonu | 3123,0 | 5009,14 | 339,23 |
| Ucar rayonu | 2500,0 | 1195,16 | 63,19 |
| Yevlax şəhəri | 2168,0 | 1598,31 | 109,12 |
| Zərdab rayonu | 3232,3 | 2838,10 | 150,00 |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

# Əsl peşəkar jurnalist haqqında yeni kitab




"Apastroff" mətbəəsində nəfis üslubda çap olunmuş yeni kitab "Elmira Əhmədova. Mən jurnalistəm..." adlanır.

AZƏRTAC xəbər verir ki, istedadlı jurnalıst, həyatdan vaxtsız getmiş Elmira Əmrahqızına həsr olunan kitabda onun haqqında doğmalarının, yaxınlarının, həmkarlarının xatirələri toplanıb.

Elmira Əmrahqızı jurnalistika fəaliyyətinə hələ keçən əsrin 70-ci illərində başlamışdı. Xalqımızın tarixinə qanlı hərflərlə yazılmış 1990-cı ilin faciəli 20 Yanvar günlərində onun Avropada yayımlanan "Azadlıq" radiosunda həyəcanla dediyi "Mən jurnalistəm! Bakıdan danışıram!" sözləri milyonlarla insana Azərbaycanda dayaq, xaricdəki soydaşlarımıza isə obyektiv məlumat idi.

Elmira Əmrahqızı ümummilli lider Heydər Əliyevin xarici səfərlərini işıqlandıran mətbuat qrupunda həmin dövrün özünəməxsus çətin, gərgin anlarında bütün sınaqlardan mətanətlə çıxdı. Ulu öndərin hər bir görüşünü, apardığı danışıqları, siyasi publisistikanın nadir inciləri sırasına daxil olan parlaq nitqlərini anbaan izləyib nəinki Azərbaycan, dünya ictimaiyyətinə çatdıra bildi. Onun yazılarında mövzu əsasən Dağlıq Qarabağ problemi və Azərbaycanın müstəqilliyinə doğru gedən yol idi.

Kitabın ikinci və üçüncü hissələrində Elmira Əmrahqızının hazırladığı məqalələr və reportajlar verilir. Dördüncü hissədə Elmira xanımla müsahibələr və onun şəxsi arxivindən seçilmiş bəzi materiallar təqdim olunur. Nəşrdə yer alan fotoşəkillərin hər biri insanı heç də uzaq olmayan illərə aparır və Elmira xanımın hər zaman dövrünün peşəkar jurnalistləri ilə bir arada olduğunu göstərir.

AZƏRTAC-ın baş direktoru Aslan Aslanov kitaba yazdığı "Qələminə və əqidəsinə, millətinə və dövlətinə sadiq jurnalist" başlıqlı "Ön söz"də unudulmaz tələbə yoldaşı Elmira Əmrahqızı haqqında dəyərli fikirlərini bölüşüb: "Harada işləməsindən, hansı informasiya vasitəsini təmsil etməsindən asılı olmayaraq, Elmira Əmrahqızı bütün ömrü boyu qələminə və əqidəsinə sadiq qaldı. Çünki Vətəni və xalqı üçün döyünən böyük ürəyə sahib idi. Elmira Əmrahqızının qələmi o ürəyin diktə etdiklərini yazır, sözlər dilinə o ürəkdən süzülüb gəlirdi".

Kitabda bir-birindən kövrək xatirələrin sırasında Milli Məclisin deputatı Elmira Axundovanın öz həmkarı barədə dedikləri də olduqca təsirlidir. O yazır: "Mən bilmirəm nə qədər ömrüm var, amma onu bilirəm ki, nə qədər yaşayacağamsa, Elmira da mənimlə birgə yaşayacaq".

Əsl peşəkar jurnalistin ömür yoluna işıq salan bu sanballı kitab həm də gənc jurnalistlər üçün bir həyat dərsidir, onlara Vətəni, torpağı, mənsub olduğun milləti necə sevməyi öyrədir. Onlara sınaqlardan üzüağ çıxmağı, çətinliklərə mərdliklə sinə gərməyi, hər zaman düzün, haqqın yanında olmağı öyrədir. Bütün bunlarla yanaşı, seçilən peşəni necə sevməyin əsl nümunəsini ortaya qoyur.

Kitabla yaxından tanış olduqca sonda bir daha "Ön söz" müəllifinin dediklərini təkrarlamaq istəyirsən: "Zaman keçəcək, nəsillər dəyişəcək, jurnalistikamıza bir-birindən istedadlı, bacarıqlı qələm adamları gələcək. Elmira Əmrahqızı kimi dəyərli jurnalistlərin yeri isə həmişə görünəcək, onların milli mətbuatımızın inkişafı naminə gördüyü işlər heç zaman unudulmayacaq".

# DSX-nin Nümunəvi Hərbi Orkestrinin çıxışı böyük coşqu ilə qarşılandı

Bakıda Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestrinin müşayiəti ilə Azərbaycanın tanınmış estrada müğənniləri konsert proqramı ilə çıxış edib.



Azərbaycan Dövlət Opera və Balet Teatrında gerçəkləşən konsertdə klassik estradanın mahnıları səsləndirilib. Nümunəvi çıxışlar böyük coşqu ilə qarşılanıb.

Orkestr dirijor Səməd Vəkilov tərəfindən idarə edilib.

***"Azərbaycan"***

Təkrar

# Azərbaycan Respublikası Vergilər Nazirliyi Azərbaycan Respublikası dövlət vergi orqanlarının tanınma nişanı, vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqləndirmə nişanlarının alınması üçün

## *açıq tender elan edir*

1. Müvafiq maliyyə və texniki imkanlara malik olan tender iştirakçıları tender təkliflərini yazılı şəkildə, möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi, 16 ünvanına təqdim etməlidirlər.
2. Tender təklifi zərfləri 22 noyabr 2017-ci il tarixində yuxarıda qeyd olunan ünvanda açılacaqdır.
3. Tenderdə iştirak etmək üçün iştirakçı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

- tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
- tender təklifinin 2 faizi həcmində təminat (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);
- iştirakçının Azərbaycan Respublikasında vergilərə, digər icbari ödənişlərə dair yerinə yetirilməmiş və vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;
- iştirakçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iştirakçının ixtisas göstəricilərinə dair sənədlər;
- iştirakçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya dövlət reyestrindən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;
- iştirakçının bank rekvizitləri barədə məlumat;
- iştirakçının rəhbərinin kimliyini və vəzifəyə təyin olunmasını təsdiq edən sənədlərin surəti;
- tenderin əsas şərtlər toplusunda iştirakçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 13 noyabr 2017-ci il, saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

4. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilinə tərcümə edilmiş surətləri əlavə edilməlidir).
5. Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçı 450,00 (dörd yüz əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidir:

**Azərbaycan Respublikası Vergilər Nazirliyi**
**Hesab №: AZ65CTRE00000000000002118401**
**VÖEN: 1300204521**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T.BİK: CTREAZ22**
**Büdcə təsnifatının kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

6. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.
7. Tender təklifi və tender təklifinin təminatı 21 noyabr 2017-ci il, saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri tender komissiyasının iclasında iştirak edə bilərlər.

8. Malların təqdim edilmə müddəti: satınalma müqaviləsinin imzalandığı tarixdən sifarişlərə əsasən, hissələrlə 31 dekabr 2017-ci il tarixədək.
9. Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:

**AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi 16,**
**Azərbaycan Respublikası Vergilər Nazirliyi**
**Əlaqələndirici şəxs: Gülbahar Qasımova, e-mail: gulbaxar.qasimova@taxes.gov.az,**
**tel: (+994 12) 403-87-91, faks: (+994 12) 403-89-77.**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## Bildiriş

"Təmiz Şəhər" ASC tərəfindən 19 oktyabr 2017-ci il tarixdə Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodunun alman istehsalı olduğunu nəzərə alaraq, qurulmuş texnoloji prosesin düzgün işləməsini təmin etmək məqsədi ilə alman istehsalı olan mal-materialın və ləvazimatların satın alınması məqsədi ilə keçirdiyi təkliflər sorğusunda ANIM Handel und Industrieberatung GmbH qalib gəlmişdir.

***Tender komissiyası***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## İtaliyanın Veneto və Lombardiya vilayətləri muxtariyyətə səs verdi

İtaliyanın şimalında yerləşən Veneto və Lombardiya vilayətlərinin sakinləri referendumda muxtariyyətə tərəfdar çıxmışlar. Bu barədə "La Stampa" qəzeti xəbər verir.

Venetoda keçirilmiş səsvermədə seçicilərin təxminən 98 faizi, qonşu Lombardiyada isə 95 faizi vilayətlərə muxtariyyət verilməsini dəstəkləmişdir.

Veneto və Lombardiyada referendumlar məşvərətçi xarakter daşıyır, vilayətlərin statusuna heç bir təsir göstərmir. Muxtariyyətin dəstəklənməsi halında bölgələrin rəhbərləri, İtaliya Konstitusiyasında nəzərdə tutulduğu kimi, hökumətlə danışıqlara başlamaq üçün xalqdan mandat alırlar. Veneto və Lombardiya İtaliyanın ÜDM-nin 30 faizini təşkil edir.

## Kataloniya hökuməti istefaya göndərildi



İspaniya Nazirlər Kabineti təcili iclasının gedişində Kataloniya hökumətinin buraxılması və muxtariyyətdə parlament seçkilərinin keçirilməsi barədə qərar qəbul etmişdir. Bu barədə "El Pais" qəzeti xəbər verir.

İclas ərəfəsində ölkənin Baş naziri Mariano Raxoy bildirmişdi ki, İspaniya Konstitusiyasının 155-ci maddəsinin tətbiqi üzərində israr edir. Bu maddə mərkəzi hakimiyyət orqanlarına muxtariyyətlərin səlahiyyətlərini məhdudaşdırmaq imkanı verir. 155-ci maddə əvvəllər heç vaxt tətbiq olunmamışdır.

Raxoyun dediyinə görə, Kataloniyada yeni seçkilər yaxın altı ay ərzində keçiriləcək. Səsvermənin nəticələri açıqlanadək muxtariyyətin parlamenti işini davam etdirəcək. Lakin qanunvericilər muxtariyyətin başçısı vəzifəsinə namizəd göstərmək hüququndan məhrum olacaqlar.

Kataloniyanın güc strukturları, o cümlədən polis İspaniya Daxili İşlər Nazirliyinin birbaşa tabeçiliyinə keçəcək.

Xatırladaq ki, Kataloniyanın müstəqilliyinə dair referendum oktyabrın 1-də keçirilmişdir. Səsvermədə iştirak edənlərin 90 faizindən çoxu vilayətin İspaniyadan ayrılmasını dəstəkləmişdir. İspaniya hökuməti referendumun qanunsuz olduğunu bəyan etmişdir. Buna cavab olaraq Kataloniyanın lideri Karlos Puçdemon bildirmişdir ki, muxtariyyətin hakimiyyət orqanları referendumun nəticələrinə yenidən baxmaq niyyətində deyil.

## ABŞ B-52 bombardmançılarını döyüş hazırlığı vəziyyətinə gətirəcək



ABŞ hərbi hava qüvvələri 1991-ci ildən bəri ilk dəfə olaraq B-52 strateji bombardmançı təyyarələrini döyüş hazırlığı vəziyyətinə gətirəcək. Bu barədə "Röyter" agentliyi xəbər verir.

ABŞ hərbi hava qüvvələrinin generalı Devid Qoldfeyn bildirmişdir ki, "mən bunu hansısa konkret hadisəyə hazırlıq kimi qiymətləndirmirəm, amma biz irəli getmək üçün hazırlığa zəmanət verməliyik". O əlavə etmişdir ki, bombardmançı təyyarələrin döyüş hazırlığı vəziyyətinə gətirilməsi barədə əmr hələ verilməmişdir, lakin belə əmrin verilməsi üçün hazırlıq aparılır.

Qoldfeyn vurğulamışdır ki, dünya təhlükəli yerdir və nüvə silahından istifadə barədə açıq danışmaq lazımdır: "Biz daha ikiqütblü dünyada yaşamırıq. Atom bombasına malik olan digər oyunçular da var".

Bir müddət əvvəl ABŞ Prezidenti Donald Tramp dünyada hazırkı vəziyyəti tufandan qabaq sakitlik kimi səciyyələndirmişdi.

## Sloveniyanın yeni prezidenti ikinci turda seçiləcək



Sloveniyada prezident seçkilərinin ikinci turu keçiriləcək. Bu barədə yerli KİV xəbər verir.

Hazırkı dövlət başçısı Borut Paxor birinci turda 47,3 faiz səs toplayıb əsas rəqibi, Kamnik şəhərinin meri Maryan Şaretsi (24,8 faiz) xeyli üstələsə də, 50 faizlik baryeri keçib mütləq əksəriyyət əldə edə bilməmişdir. Üçüncü yeri Sloveniya Demokratik Partiyasının namizədi Roman Tomts (13,6 faiz) tutmuşdur. Ümumiyyətlə, dövlət başçısı vəzifəsi uğrunda mübarizədə doqquz namizəd iştirak edirdi. Seçkilərin ikinci turu gələn ayın 12-də keçiriləcək.

## Nigeriyada 13 nəfər terror aktının qurbanı oldu



Nigeriyanın şimal-şərqində, Mayduquri şəhərində üç intiharçının törətdiyi terror aktı nəticəsində azı 13 nəfər həlak olmuş, 16 nəfər yaralanmışdır. Bu barədə "Frans Press" agentliyi təhlükəsizlik orqanlarındakı mənbəyə istinadən xəbər verir.

Mənbənin məlumatına görə, birinci intiharçı şəhərdəki kiçik restoranın qarşısında özünü partlatmışdır. Bir neçə dəqiqədən sonra isə daha iki partlayış baş vermişdir. Mənbə əlavə etmişdir ki, terror hücumu şəhərin ətrafında "Boko Haram"ın çoxsaylı ekstremistlərinin peyda olması barədə məlumat daxil olduqdan bir neçə saat sonra həyata keçirilmişdir.

Terror aktına görə hələlik heç kim məsuliyyəti üzərinə götürməmişdir. Lakin hakimiyyət orqanları hesab edir ki, partlayışların arxasında "Boko Haram" radikal təşkilatı dayanır. Nigeriyada fəaliyyət göstərən bu qruplaşma müntəzəm olaraq qonşu Niger, Kamerun və Çadda da terror hücumları həyata keçirir.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Regional məsələlər komitəsinin üzvləri Arif Rəhimzadə, Fəttah Heydərov, Azər Badamov, Kamran Bayramov, Malik Həsənov, Rüstəm Xəlilov, Fəzail İbrahimli, Cavid Osmanov, Tahir Rzayev və Milli Məclis Aparatının əməkdaşı Günay Əkbərova komitənin eksperti İsax Alməmmədova əzizi

**QƏNİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Müalicə-profilaktika fakültəsinin I mamalıq-ginekologiya kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru, əməkdar müəllim, Prezident təqaüdçüsü

**ZEMFİRA TOPÇUBAŞOVANIN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və kollektivi palatanın Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin sektor müdiri

**RÖVŞƏN RƏHİM OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi akademiyanın Aeronaviqasiya kafedrasının müdiri, professor

**VALERİY ZEYNATDİNOVİÇ SULTANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rektorluğu İqtisadi və sosial coğrafiya kafedrasının müdiri, professor Tapdıq Həsənova həyat yoldaşı

**TAMARA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin rektorluğu Biologiya fakültəsinin dosentləri Əbülfəz Tağıyevə və Sevinc Quliyevaya əzizləri

**MƏHİ QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin rektorluğu "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" Elmi-Tədqiqat Laboratoriyasının aparıcı elmi işçisi

**GÜLZAR NOVRUZOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi iş yoldaşları

**GÜLZAR NOVRUZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatı Redaksiya və nəşr işləri şöbəsinin əməkdaşları Hafiz Babayev, Ülviyyə Abdullayeva, Mehman Namazov, Sədaqət Cabbarova, Fəxrəddin Cumayev, Aidə Əhmədova, Mübariz Əsgərov, Afaq Həsənova, Pərvanə Həsənova, Fidan Nəbiyeva, Nəzrin Əliyeva, Nigar İsmayılova, Sevinc Yusifzadə, Yaqut Bədirova, Gövhər Hüseynova və Tahirə Mirbağırova iş yoldaşları Sevinc Güləliyevaya bacısı

**ŞƏFƏQİN**

faciəli vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universiteti I mamalıq-ginekologiya kafedrasının müdiri, professor E.M.Əliyeva və kafedranın əməkdaşları dosent

**ZEMFİRA MUSTAFA QIZI TOPÇUBAŞOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan " qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan " nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8601
Sifariş 3634